## AŞPA-da Laçın yolu ilə bağlı müzakirələr aparılacaq



**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası öz başlayıb.**

APA-nın Britaniya bürosu xəbər verir ki, sessiya çərçivəsində Laçın yolu ilə bağlı müzakirələr aparılacaq.

Bu barədə qurumun yay sessiyasının açılışı zamanı yekun gündəliyin qəbulunda qeyd olunub.

*Qeyd edək ki, AŞPA-nın yay sessiyası 19-23 iyun 2023-cü il tarixlərində Strasburqda keçirilir.*

## Ötən il boşananların 6421-i uşaqsız ailə olub



**2022-ci ildə 15 983 boşanma qeydə alınıb ki, onlardan 6421-i uşaqsız ailə olub.**

Bu barədə Dövlət Statistika Komitəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib. Qeyd edilib ki, ötən il qeydə alınmış boşanmalardan 9562-i 18 yaşadək uşaqları olan ailələr arasında qeydə alınıb:

"Onlardan 4 154 ailə 1 uşaqlı, 5 408 ailə isə 2 və daha çox uşaqlı olub ki, onlarda uşaqların sayı 12 180 olub".



## Azərbaycanda gəmilərlə daşınan sərnişinlərin sayı artıb

**2023-cü ilin yanvar-may aylarında Azərbaycanda dəniz nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2022-ci ilin müvafiq dövrünə nisbətən 26,5 faiz artaraq 8,6 min nəfər olub.**

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Qeyd olunan dövr ərzində dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi 3575,8 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 25,3 faiz artıb. Yüklərin 56,7 faizini neft yükləri təşkil edib.

Dəniz limanları tərəfindən 5061,4 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib və yüklərin 4159,4 min tonunu və ya 82,2 faizini tranzit yüklər təşkil edib. 2023-cü il iyun ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 170,4 min ton olub.


❒ № 106 (5867) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 iyun 2023-cü il (çərşənbə axşamı)




## 2023-cü il dövlət büdcəsinə dəyişikliklər təsdiqlənib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə Qanunu təsdiqləyib.**

Sənədə əsasən Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri 33 890 500,0 min manat, xərcləri 36 624 800,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 33 125 798,0 min manat, yerli gəlirləri 764 702,0 min manat, mərkəzləşdirilmiş xərcləri 35 847 792,0 min manat, yerli xərcləri 777 008,0 min manat) məbləğində təsdiq edilib.

## Avropa Şurasının Baş katibi Azərbaycan və Ermənistana çağırış edib



**Azərbaycan və Ermənistan arasında son vaxtlar görülən işlər çox əhəmiyyətlidir.**

APA-nın Britaniya bürosu xəbər verir ki, bu barədə Avropa Şurasının Baş katibi Maria Peyçinoviç-Buriç qurumun yay sessiyasında çıxışı zamanı bildirib.

O, iki ölkə arasında etimad qurulması tədbirlərinin əhəmiyyətindən danışıb, bu yolla Avropa Şurasının məsələlərin həlli yolunun tapılacağına inandığını vurğulayıb. "Avropa Şurasının nümayəndə heyətinin bu yaxınlarda Azərbaycana səfəri oldu. Bundan bir neçə həftə sonra isə, nümayəndə heyətinin Ermənistana səfəri planlaşdırılıb. Bu yaxınlarda iki ölkə arasında görülən işlər çox vacibdir, mən daha çox dialoqu, bir-birimizi daha çox dinləməyi, həlli açıq qalan məsələlər üzərində daha çox işləməyi təşviq edirəm", - Baş katib qeyd edib. Baş katib qeyd edib ki, yeni münaqişələr yaratmaq yerinə mövcud münaqişələrin həllinə ehtiyac var.

# Ermənistan Azərbaycanla sərhədə qoşun toplayır

## Mümkün təxribat hücumunun birdən çox hədəfləri ola bilər



**Son günlər erməni təxribatları kəskin artmaqdadır. Laçın yolundakı təxribatdan sonra vəziyyət daha da kritikləşib. Kəlbəcər, Gədəbəy, Naxçıvan, həmçinin Ağdam və Şuşa istiqamətində bölmələrimiz müxtəlif çaplı atıcı silahlardan intensiv atəşə tutulur.**

Ermənistan tərəfinin Azərbaycanla sərhədə qoşun cəmləməsi ilə bağlı xəbərlər yayılır.

"Sisakan" dəstəsinin döyüşçüsü Aşor Avaqyan bu xəbəri təsdiqləyib. Bildirib ki, sərhəddəki qüvvələr ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Həmçinin ərazimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Ağdam rayonu istiqamətində yerləşən mövqelərimizin qarşısında fortifikasiya (kəşfiyyat cihazı) qurğularını quraşdırmağa cəhd göstəriblər.

(səh.2)

# Şəhərdə pedofillər gəzir, valideynlər diqqətli olmalıdır

## Psixoloq: "Bu xəstəlikdən əziyyət çəkən insanlar getdikcə artır"



**"Pedofiliya psixi pozuntudur. Özündən yaşca kiçik, kəskin yaş fərqi olan insanlara qarşı cinsi meyildir".**

Bunu "Şərq"ə psixoloq Elnur Rüstəmov Bakıda pedofilin uşağı qorxutduğu iddiası ilə bağlı danışarkən deyib. Onun sözlərinə görə, adıçəkilən xəstəlikdən əziyyət çəkən insanlar getdikcə artır:

"Lakin hazırda həmin şəxslərin statistikasını aparmaq bir qədər çətindir. Çünki cəmiyyətdə sözügedən insanların bir qismi mövcud problemdən əziyyət çəkdiklərini fərqində deyil, digər hissəsi isə bunu gizlədir.

(səh.5)



## XİN: Azərbaycan minalarla çirklənmiş ərazilərinin artıq onda birini təmizləyib

**"Mövcud çətinliklərə baxmayaraq Azərbaycanın minalarla çirklənmiş ərazilərinin artıq onda birini təmizləyib".**

APA xəbər verir ki, bunu Piyadalar Əleyhinə Minaların Qadağan Olunması üzrə Konvensiyanın 2023-cü il sessiyalararası görüşündə iştirak edən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İsgəndərov deyib.

Səfir, həmçinin, Ermənistanın beynəlxalq humanitar hüququn tələblərini pozaraq Azərbaycana hələ də dəqiq mina xəritələrini verməkdən boyun qaçırdığı vurğulanıb. Bu xüsusda, beynəlxalq həmrəyliyin göstərilməsinin vacibliyi, həmçinin ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığa hazır olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

## Vəfat edən olmayıb

### İki yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən sağalan və vəfat edən olmayıb. Azərbaycanda indiyədək ümumilikdə 831 896 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 821 599 nəfər müalicə olunaraq sağalıb, 10 281 nəfər vəfat edib, aktiv xəstə sayı 16 nəfərdir. Ölkədə son sutka ərzində 346, hazırkı dövrədək isə 7 637 355 test aparılıb.

## Dəhşətli fakt

### Ötən il 17 yaşlı 270 qız nikaha daxil olub



**Ötən il qızlar və oğlanlar arasında yaş qruplarına görə nikahların statistikası açıqlanıb.**

Dövlət Statistika Komitəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, 2022-ci ildə 61939 nikah qeydə alınıb. Nikaha daxil olan qızlardan 270-i 17 yaşında olub. Bildirilib ki, 17 yaşda kişilər arasında nikah qeydə alınmayıb. Qadınlar arasında ən çox nikaha daxilolma yaşı 20-24 yaş, kişilər arasında isə 25-29 yaş olub:

"18-19 yaşda 13 594 qadın, 269 kişi, 20-24 yaşda 24 326 qadın, 10 800 kişi; 25-29 yaşda 12 669 qadın, 27 146 kişi; 30-34 yaşda 5 080 qadın, 14 356 kişi; 35-39 yaşda 2 620 qadın, 4 316 kişi; 40-44 yaşda 1 371 qadın, 1 879 kişi; 45-49 yaşda 832 qadın, 1 049 kişi; 50-54 yaşda 532 qadın, 757 kişi; 55-59 yaşda 339 qadın, 529 kişi; 60 və yuxarı yaşda 306 qadın, 838 kişi nikaha daxil olub".



## Ermənistan tərəfi sülh müzakirələrinə hazır deyil

Əslində vasitəçilik missiyasını icra edən Rusiya, o cümlədən Qərb ölkələri də vaxtın uzanmasında maraqlıdır

(səh.3)



## Rəisinin xanımı türkləri düşmən adlandırdı

"Onlar Sasani imperiyasının dirçəlməsinə zəmin hazırlamaq amalındadırlar"

(səh.5)



# Prezident İlham Əliyev OPEC-in Baş katibini qəbul edib

## Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qaysı qəbul edib.**

Haysam Əl-Qays, ilk növbədə, Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, Şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şahzadə Əbdül Əziz bin Salman Əl-Səuda çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla OPEC+ ölkələri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi. Baş katib vurğuladı ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan OPEC+ formatı yaranan ilk gündən bu əməkdaşlığa böyük töhfə verir və o, buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Eyni zamanda, bu gün qlobal neft bazarında OPEC+ formatında fəaliyyətin roluna toxunuldu, indiyədək bu bazarda sabitliyin əldə edilməsinin məhz bu formatda həyata keçirilən fəaliyyət nəticəsində mümkün olduğu xüsusi qeyd edildi.

Söhbət zamanı bu gün "fossil" yanacaqlar sahəsində mövcud olan məsələlər müzakirə edildi, gələcəkdə bu sahəyə investisiyaların ayrılmasının vacibliyi bildirildi. Dünya iqtisadiyyatının artması nəticəsində ümumilikdə enerjiyə çoxalan tələbat nəzərə alınaraq, bu sahəyə son zamanlarda investisiyaların azaldılmasının müəyyən narahatlıq doğurduğu qeyd olundu.

Görüşdə dünyada yaşıl enerji sahəsində əldə edilən irəliləyişlərlə bərabər, ənənəvi yanacağın oynadığı vacib rol vurğulandı. Ənənəvi enerji sahəsində ətraf mühitə zərərin azaldılması baxımından yeni texnologiyaların tətbiqinin xüsusi əhəmiyyət daşıdığı bildirildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Macarıstan XİN başçısı nikbindir

## "Azərbaycan qazının tezliklə ölkəmizə çatdırılacağına ümidvarıq"




**"Azərbaycan qazının tezliklə ölkəmizə çatdırılacağına ümidvarıq".**

"Report"un yerli bürosu xəbər verir ki, bunu Macarıstanın xarici işlər naziri Peter Siyarto Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Macarıstanın təbii enerji resursları yoxdur və bu məsələdə xarici ölkələrdən asılıdır: "Ona görə də Macarıstan Azərbaycanla təbii enerji resursларını əldə etmək üçün ikitərəfli müqavilə imzalayıb. Ancaq bunu hələ də reallaşdıra bilmir. Çünki təbii qaz boru kəməri ilə ötürüldüyündən infrastruktura ehtiyac var. Biz Avropa İttifaqından bu məsələdə yardım istədik, ancaq Macarıstana dəstək verilmədi. Avropa İttifaqı bu məsələdə etibarını itirib. Biz ümid edirik ki, Yunanıstan, Türkiyə və digər qonşu və sərhəd ölkələrlə birləşib regional infrastrukturumuzu yaxşılaşdırmaqla tezliklə Azərbaycan qazından yararlana biləcəyik".

## Rəşad Nəbiyev "Bolt"un prezidenti ilə taksi bazarının tənzimlənməsini müzakirə edib

**"Bolt" şirkətinin prezidenti Yevgeni Kabanov ilə onlayn görüş keçirdik".**



Bu barədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev paylaşım edib.

"Bakı şəhərinin taksi bazarında mövcud problemləri və sektorun tənzimlənməsi ilə bağlı planlarımızı müzakirə etdik", - deyə məlumatda bildirilir.

# Regionda və beynəlxalq miqyasda vəziyyət kifayət qədər gərgindir

## Təhlükəsizliyin təmin edilməsi məqsədilə, Bakı və London arasındakı əlaqələr daim inkişaf etməlidir

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyaya işgüzar səfərə yola düşüb.**



Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Səfər çərçivəsində C.Bayramovun Azərbaycan ilə Böyük Britaniya arasında strateji dialoqda, eləcə də Ukrayna Bərpa Konfransında iştirakı nəzərdə tutulub. Həmçinin nazirin bir sıra yüksəksəviyyəli rəsmilərlə ikitərəfli görüşləri, beyin mərkəzlərində çıxışları planlaşdırılır.

**Səfərin gizlinləri**

**"Şərq"ə açan siyasi şərhçi Elşən Məcidov bildirib ki, Azərbaycan və Böyük Britaniya arasındakı münasibətləri strateji tərəfdaşlıq və müəyyən mənada müttəfiqlik kimi də nəzərdən keçirmək olar:** "Bizim onsuz da Avropa İttifaqına üzv olan ölkələrin üçdə biri, yəni 9-u ilə strateji tərəfdaşlığımız var. Ancaq Britaniya ilə münasibətlər digər 9 ölkəyə nisbətən daha üstündür. Ümumiyyətlə, iki ölkə arasındakı əlaqələr, Azərbaycanın İsrail və Türkiyə ilə münasibətləri səviyyəsindədir. Başqa sözlə desək, Azərbaycan-Britaniya əlaqələri strateji tərəfdaşlıq və müttəfiqlik arasında bir mövqedədir. Məhz bunun daha da inkişaf etdirilməsi üçün xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyaya gedib".

**Analitik əlavə edib ki, bu səfərin bir neçə vacib əsası olduğunu vurğulamaq lazımdır:** "Birincisi, regionda və beynəlxalq miqyasda vəziyyət kifayət qədər gərgindir. Böyük Britaniyanın isə Cənubi Qafqazda geoiqtisadi və geosiyasi maraqları var. Bunların təhlükəsizliyinin təmin edilməsi məqsədilə, Bakı və London arasındakı əlaqələr daim inkişaf etməlidir. Digər tərəfdən, iki ölkə arasındakı əməkdaşlığın əsasını Fransa və Ermənistan arasındakı sıx əlaqələr təmin edir. Bildiyimiz kimi, Fransa və Böyük Britaniya rəqibdirlər. Yəni rəsmi London Parisin Cənubi Qafqazdakı mövqelərini balanslaşdırmaq üçün Azərbaycanla münasibətləri aktuallaşdırır. Xüsusilə vurğulamaq lazımdır ki, Rusiyanın qlobal miqyasda zəifləməsi özünü regionda da göstərir. Nəticədə isə Fransa bundan istifadə edərək Ermənistanda möhkəmlənməyə çalışır. Ancaq rəsmi Parisin əsas məqsədi Qarabağdakı separatçıların əli ilə Cənubi Qafqazda öz nüfuzunu təmin etməkdir. Bunlardan biri Ermənistan, digəri Azərbaycandır. Ona görə də Fransa Bakı-Xankəndi arasındakı dialoqun bərqərar edilməsində maraqlıdır. Bu isə Azərbaycan konstitusiyasına və Böyük Britaniyanın maraqlarına ziddir. Ümumiyyətlə, düşünürəm ki, boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi və Fransanın artan nüfuzunu balanslaşdırmaq Ceyhun Bayramovun Britaniya səfərində əsas müzakirə mövzuları olacaq".

**Nihat Müzəffər**

# Ukrayna güzəştə getməyəcək!

## Bu, rəsmi Kiyevə sərf etmir

**"Rusiya qoşunları Ukraynada olduğu müddətcə ruslarla heç bir danışıqlar olmayacaq".**



Bunu Ukrayna Prezident Aparatının rəhbəri Andrey Yermak söyləyib. O, Ukraynanın heç bir ərazi güzəştinə getməyəcəyini vurğulayıb: "İndi Ukrayna hökuməti çalışır ki, Braziliya və Hindistan kimi ölkələr də Volodimir Zelenskinin sülh planının həyata keçirilməsinə dəstək versinlər", - deyə Yemak qeyd edib.

**Hələ Ukrayna tərəfinin genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamadığını deyən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, sadəcə, lokal tədbirlər aparılır:** "Əks-hücum əməliyyatlarının aparılması ərəfəsində hansısa sülh danışıqlarından söhbət açmaq məntiqə uyğun olmaz. Çünki Ukraynanın hədəfləri var. Bu hədəflər isə heç olmasa, torpaqların böyük bir qismini geri qaytarmaqdır. Ümumiyyətlə, sülh danışıqları əks-hücumun dayandırılması və mövcud olanların ləğv olunması deməkdir. Bu isə hazırda rəsmi Kiyevə sərf etmir. Xüsusilə də taktiki üstünlük əlində olduğu zamanda. Yəni Ukrayna ordusu cəbhədə müəyyən qəsəbələri geri qaytarır və Rusiya Silahlı Qüvvələrinin müdafiə xəttini yara bilir. Ona görə də danışıqların aparılmasına maraq göstərmir".

**Nihat Müzəffər**

# Ermənistan Azərbaycanla sərhədə qoşun toplayır

## Mümkün təxribat hücumunun birdən çox hədəfləri ola bilər



**Son günlər erməni təxribatları kəskin artmaqdadır. Laçın yolundakı təxribatdan sonra vəziyyət daha da kritikləşib. Kəlbəcər, Gədəbəy, Naxçıvan, həmçinin Ağdam və Şuşa istiqamətində bölmələrimiz müxtəlif çaplı atıcı silahlardan intensiv atəşə tutulur. Ermənistan tərəfinin Azərbaycanla sərhədə qoşun cəmləməsi ilə bağlı xəbərlər yayılır.**

"Sisakan" dəstəsinin döyüşçüsü Aşor Avaqyan bu xəbəri təsdiqləyib. Bildirib ki, sərhəddəki qüvvələr ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Həmçinin ərazimizdəki qeyri-qanuni erməni silahlı dəstələri Ağdam rayonu istiqamətində yerləşən mövqelərimizin qarşısında fortifikasiya (kəşfiyyat cihazı) qurğuları quraşdırmağa cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

Ümumerməni Milli Dövlət Partiyasının sədri Artur Vardanyan isə deyib ki, Zəngəzur və Göyçə vilayətlərinə gedən avropalı müşahidəçilər gərgin vəziyyətlə əlaqədar təcili təxliyə edilib. Onun sözlərinə görə, Azərbaycanla bütün təmas xətləri boyunca bir nömrəli hazırlıq elan edilib.

**Təxribat cəhdləri ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Asif Nərimanlı deyib ki, ermənilər 1 nömrəli hazırlıq vəziyyətinin Azərbaycan Ordusunun hərəkətliliyinə görə elan edildiyini iddia edirlər. Analitik vurğulayıb ki, hərçənd onların məlumatlarını analiz etdikdə hücumun Azərbaycan yox, Ermənistan tərəfindən hazırlandığı aydın görünür:** "Azərbaycanın hərbi əməliyyatları öz ərazisində keçirməsi ehtimalı daha çoxdur, nəinki sərhədboyunca. Mövcud şəraitdə Qarabağda separatizmin ləğv edilməsi daha aktual görünür. Ermənilər Azərbaycan Ordusunun "Kəlbəcər, Laçın və Naxçıvan istiqamətində cəmləndiyini" iddia edir. Kəlbəcər və Laçın istiqamətində orduมuz strateji yüksəkliklərə sahibdir. Naxçıvan istiqamətində Zəngəzur dəhlizinin hərbi yolla açılması versiyası bölgədə üçüncü ölkələrin də qoşula biləcəyi hərbi eskalasiya riski yaratdığı üçün bu ehtimal az görünür. Ermənistan avropalı müşahidəçiləri sərhədə məhz "Azərbaycan atəş açır, təxribat törədir" iddialarını isbat etmək üçün gətiriblər. Əgər Azərbaycan hücuma hazırlaşsa, ermənilər müşahidəçiləri bölgədən təxliyə etməz. Əksinə, "sübutlar toplamaq" üçün saxlayardılar. Onların təxliyəsi hücumun Ermənistan tərəfindən hazırlandığını açıq şəkildə göstərir".

**A.Nərimanlı hesab edir ki, Ermənistanın mümkün təxribat hücumunun birdən çox hədəfi ola bilər:** "Azərbaycan Qarabağda genişmiqyaslı antiterror əməliyyatına başlayarsa, Ermənistan tərəfi sərhəddə təxribatlarla cəbhəni böyütmək, qüvvələri ikiyə bölmək və zəiflətmək niyyətinə düşə bilər. Həmçinin Kəlbəcər və Laçın istiqamətində əlverişli mövqelərə çıxmaq istəyər. Naxçıvan istiqamətində təxribatlarla "Azərbaycan Zəngəzur dəhlizini hərbi yolla əldə etmək istəyir" görüntüsü yaratmağa, üçüncü ölkələri - Qərb ölkələrinin və İranın ən azı siyasi müdaxiləsinə nail olmağa çalışar. Bununla yanaşı, sərhəddə təxribatlar törətməklə danışıqlar masasında "güzgü prinsipi"ni, yəni qoşunların geri çəkilməsini yenidən aktuallaşdırmaq məqsədi güdə bilər. Ermənistan ordusunun sərhədboyu ərazilərdə 1 nömrəli hazırlıq vəziyyətinə gətirilməsindən sonra müdafiə naziri Suren Papikyanın Fransaya səfəri də diqqətçəkən məqamlardandır".

**İsmayıl Qocayev**

# Sanksiyalar İran iqtisadiyyatını taqətdən salıb

## Tehran yenidən Vaşinqtonla qapalı danışıqlara başlayıb

**"ABŞ və İran nümayəndələri Oman dövlətində qapalı danışıqlara başlayıblar. Tərəflərin bir-birilərindən tələb və istəklərini ümumiləşdirmək mümkündür".**



*Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Ekspert bildirib ki, ABŞ İranda həbsdə saxlanılan vətəndaşlarının sərbəst buraxılmasını istəyir:* "İrandan uranın zənginləşdirilməsinin 60 faiz həndəvərində və beynəlxalq aləmin nəzarəti altında həyata keçirməsi tələb olunur. Tehrana bağlı qüvvələr Suriya və İraqda ABŞ-yə bağlı qüvvələrə qarşı təxribatlara son qoymalıdırlar. İran Rusiyaya ballistik raketlər verməməlidir. Həmçinin İran atacağı addımların qarşılığında Qərb banklarındakı maliyyə vəsaitləri üzərindən sanksiyaların götürülməsini istəyir. Tehran ABŞ-nin ümumilikdə İrana qarşı iqtisadi sanksiyaların yumşalmasını da tələb edir".

**Ekspert vurğulayıb ki, danışıqlarda daha çox Tehran maraqlıdır:** "Sanksiyalar İran iqtisadiyyatını taqətdən salıb. Tehran yenidən Vaşinqtonla nüvə anlaşmasının imzalanmasına çalışır. ABŞ Prezidenti Co Bayden də Ağ Evin keçmiş sahibi Barak Obamanın dövründə olduğu kimi Tehranla saziş imzalamağa həvəs göstərir. Ancaq Baydenin qarşısında iki güc var. ABŞ-dəki sağ mühafizəkar dairələr və Vaşinqtonun strateji müttəfiqi olan İsrail İranla istənilən razılaşmanın imzalanmasının əleyhinədirlər. Çünki Tehran nüvə anlaşması imzaladıqdan sonra uranın zənginləşdirilməsindən imtina edə bilər. Ancaq bölgədəki terrorçu qrupları maliyyələşdirməkdən və silahlandırmaqdan imtina etməyəcək. Bu isə ABŞ-nin bölgədəki müttəfiqlərinə, o cümlədən İsrailə təhdid yaradır".

**İsmayıl**

# Ermənistan Azərbaycana yeni təklif göndərib

## İrəvanın təklifinin həqiqətənmi sülhə xidmət etdiyini, yaxud sadəcə imitasiya olduğunu zaman göstərəcək



**Ermənistanın baş nazirinin müavini Mger Qriqoryan Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevə Ermənistanla Azərbaycan arasında sərhədin demarkasiyası üzrə komissiyaların iclasının keçirilməsi təklifini göndərib.**

Təklifin məqsədi xüsusilə Ermənistan-Azərbaycan sərhədində gərginliyə səbəb olan aktual məsələləri müzakirə etməkdir. Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan deyib ki, İrəvanla Bakı arasında sülhün alternativi yoxdur. Lakin onun sözlərinə görə, Ermənistan və Azərbaycan sərhədində hələ də toqquşmalar var, insanlar ölür, belə bir şəraitdə nəqliyyat əlaqələrinin bərpası ilə bağlı danışıqlar aparmaq çətindir: ”İrəvan və Bakı bir sıra əsas məsələlər, o cümlədən sərhədlərin delimitasiyasının hansı ilin xəritəsi əsasında aparılmalı olduğunu hələ razılaşdırmayıb”. O, həmçinin Bakı-Xankəndi dialoqu haqda razılaşmanın olmadığını əlavə edib. Rusiya baş nazirinin müavini Aleksey Overçuk da bildirib ki, tərəflərin mövqeləri bir-birindən kifayət qədər uzaqdır, lakin iş davam edir: ”Hamı başa düşür ki, Azərbaycanla Ermənistan arasında sülhə alternativ yoxdur. Sülhə nail olmağın ən yaxşı yolu qarşılıqlı əlaqə imkanlarını açmaq, ümumi yol qurmaqdır. Bu yoldan insanlar istifadə edəcək, mallar daşınacaq, daha sonra səyahət ediləcək, normal həyat və ticarət başlayacaq, köhnə narazılıqlar tədricən arxa plana keçəcək”. Kommunikasiyaların açılma müddətinə gəlincə, Overçuk qeyd edib ki, hələlik bu suala dəqiq cavab yoxdur, amma baş nazirin müavinlərindən ibarət üçtərəfli işçi qrupunda unikal münasibətlər formatı formalaşıb.

**Politoloq Turab Rzayev bildirib ki, Azərbaycan-Ermənistan arasında sərhədin demarkasiyası üzrə komissiyaların iclaslarının keçirilməsi normaldır və əslində komissiyaların yaradılmasının səbəbi də elə sərhəddə demarkasiya məsələsinə nəzarət olunmasıdır.** Ekspertin fikrincə, reallıqda komissiyaların iclaslarının keçirilməsi ilə bağlı İrəvanın təklifinin həqiqətənmi sülhə xidmət etdiyini, yaxud sadəcə imitasiya olduğunu zaman göstərəcək: ”Ermənistan həqiqətənmi sülhə, əmin-amanlığa çalışır? Niyyəti bölgədə iqtisadi rifahın təmin olunması, nəqliyyat xətlərinin açılmasıdırmı? Yoxsa çalışırlar ki, son günlər Azərbaycana qarşı təxribatları hansısa formada cavabsız, cəzasız qalsın. İstənilən halda Ermənistan rəhbərliyi müharibənin başlanmasını istəmir. İrəvan hökuməti müəyyən qədər sülhə meyillidir. Sadəcə, Ermənistan daxilindəki bəzi qüvvələr həm hakimiyyət içində, həm də müxalifətdə hökumətə müqavimət göstərirlər. ”Qarabağ klanı” Ermənistan ordusunda, hüquq-mühafizə və təhlükəsizlik xidmətində ciddi təsirə malikdir. Çalışırlar ki, Paşinyan hakimiyyəti uğursuz olsun, çıxılmaz vəziyyətə düşsün. Bununla yenidən hakimiyyətə gəlmək, həm də öz maraqlarına, eyni zamanda təlimat aldıqları Rusiyanın maraqlarına uyğun addımlar atırlar. Xatırlayırsızsa, bir müddət əvvəl baş vermiş təxribatın ardınca Baş nazir Nikol Paşinyan açıqlama verdi ki, orduya belə bir tapşırıq verməyib. Əslində Paşinyan dolayı yolla etiraf edirdi ki, ordu içindəki təxribatçılar İrəvana yox, Moskvaya tabedir. İndi də Paşinyana təzyiq göstərmək üçün belə təxribatlara gedə bilərlər. Lakin İrəvan hökuməti özü də vaxt udmağa çalışırsa, o zaman hökumət üzvlərinin açıqlamaları da qeyri-səmimidir”.

**İsmayıl Qocayev**



# Taxıl sazişinin müddətinin uzadılması sual altındadır

## Əgər kompromis əldə edilməzsə, qiymətlərdə bir müddət böyük artımlar olacaq

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov taxıl müqaviləsinin gələcəyindən danışıb. Nazir qeyd edib ki, ”Tolyatti-Odessa” ammonyak boru kəmərinin partlaması sübut edir ki, sövdələşməni pozmaq istəyənlər var. Lavrovun sözlərinə görə, bu müqavilə ilə yalnız Ukrayna tərəfinin aktiv ticarət fəaliyyəti göstərməsini təmin etmək istəyi müşahidə olunur:**

”Tamamilə unudurlar ki, biz də müqavilənin bir tərəfiyik və bizim də bu sənədə imza atmaqda öz maraqlarımız var”. Rusiya diplomatiyasının rəhbəri qeyd edib ki, Moskva mütləq ehtiyacı olan ölkələrə Qərbin maneələrindən asılı olmayan marşrutlar üzrə taxıl tədarükünü davam etdirəcək: ”Qoy onlar Qərbdə öz kommersiya maraqlarını həyata keçirsinlər. Bu taxıl və gübrə sövdələşməsinin Rusiya hissəsinin bloklandığı bütün o aylar ərzində biz inkişaf etməkdə olan ölkələrə Qərbin yaratdığı maneələrdən asılı olmayan marşrutlar üzrə taxıl tədarükünü davam etdirdik. Və biz bunu davam etdirəcəyik. Buna heç bir şübhə yoxdur”.

**İqtisadçı Eldəniz Əmirov deyib ki, taxıl sazişinin müddətinin uzadılmaması buğdanın qiymətini yenidən qaldıra bilər.** Ekspert bildirib ki, Lavrovdan öncə Vladimir Putin də ”taxıl müqaviləsi”ndən çıxmaq barədə fikirlər, daha doğrusu, təhdidlər səsləndirmişdi: ”Şərt olaraq ABŞ qarşısında ”Rosselxozbank”ın SWIFT sisteminə yenidən qoşulması, kənd təsərrüfatı texnikasının logistikasının - ehtiyat hissələrinin və servis xidmətinin bərpası, limanlara giriş qadağasının aradan qaldırılması məsələlərini tələb kimi qoyurlar. Amma Amerikanın bu tələblərdən azı ikisini rədd edəcəyi şübhəsizdir. Heç bir halda qəbul edilməsi real görünmür. ”Taxıl müqaviləsi”ndən çıxmaq isə hər iki tərəf üçün problemlər yarada bilər. Eyni zamanda taxılla bağlı problemlər yaranarsa, bu zaman Moskva Vaşinqtonun digər təzyiqləri ilə üzləşəcək. Ona görə də kompromisə gəlinə bilər. Məsələn, ”Rosselxozbank”ın SWIFT sisteminə yenidən qoşulması və limanlara giriş qadağası saxlanıla, amma kənd təsərrüfatı texnikasının logistikasının bərpası mümkün ola bilər. Yox, əgər kompromis əldə edilməzsə, qiymətlərdə bir müddət böyük artımlar olacaq”.

**İsmayıl**

# Saakaşvili inadkar siyasətçidir, qayıdıram deyirsə, qayıdacaq

## Rusiyanın dünyada mövqeyinin zəifləməsi seçkilərə öz təsirini göstərəcək, inadkar Saakaşvili növbəti seçkilərə ciddi hazırlaşır

**Gürcüstanın həbsdə olan sabiq prezidenti Mixeil Saakaşvili aktiv şəkildə siyasətlə məşğul olacağını bəyan edib. O, səhhətindəki problemlərə baxmayaraq, Gürcüstan siyasətində, Ukraynada gedən proseslərdə iştirak edəcəyini vurğulayıb.**



Saakaşvili həmçinin keçirilən bütün məhkəmə iclaslarında şəxsən iştirak edəcəyini bildirib: ”Mən əsasını qoyduğum ”Vahid Milli Hərəkat” partiyası da daxil olmaqla bütün milli, anti-Rusiya Avropa qüvvələrini birləşməyə çağırıram”. Saakaşvili bəyan edib ki, onun həbsi Gürcüstan tarixində utancverici hadisədir: ”Gürcüstan xalqı beynəlxalq ictimaiyyətlə birlikdə bu ədalətsizliyə tez bir zamanda son qoymalıdır”. Xatırladaq ki, xeyli müddət həbsdə olan sabiq prezidentin səhhətində ciddi problemlər yaranıb və vəziyyəti kritikləşib. Hətta bir müddət öncə keçmiş rəhbərin anası onun adından açıqlama verərək M.Saakaşvilinin bir daha siyasətə geri dönməyəcəyini bəyan etmişdi.

**Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev ”Şərq”ə bildirib ki, Mixeil Saakaşvilinin aktiv siyasətə dönüşü barədə bəyanatı onun yenidən qayıdışı kimi qiymətləndirilməməlidir. Politoloq bildirib ki, Saakaşvilinin siyasi aktivliyinin zəifləməsi xəstəliyi ilə bağlı idi:** ”Görünür, artıq iddia edilən zəhərlənmə hadisəsindən sonra yenidən aktiv siyasi fəaliyyətə başlamağa qərar verib. Saakaşvili xaraktercə mübariz olmağı ilə yanaşı, həm də inadkar siyasətçidir. Məlumdur ki, onun həbsdə tutulmasını təmin edən Rusiyada yaşayan tanınmış milyarder Bidzina İvanişvilidir. Rusiyanın Ukraynada düşdüyü çətin durum hazırda digər bölgələrdə təsir imkanlarını saxlamaqda çətinliklər yaşadır. Bu, eyni zamanda Cənubi Qafqaza da öz təsirini göstərməkdədir. 2024-cü ildə Gürcüstanda prezident və parlament seçkilərinin keçirilməsi Saakaşvilini stimullaşdıran faktorlardan biridir. Qarşıdan gələn seçkilərin elektron qaydada aparılması barədə Gürcüstan MSK-nın qərarı seçimlərin gərgin və daha çox demokratik keçiriləcəyinə işarədir. Ötən prezident seçkilərinin birinci turunda M.Saakaşvilinin rəhbəri olduğu Vahid Milli Hərəkat Partiyasının namizədi Qriqol Vasadze hazırkı prezidentə 1 faiz səslə uduzmuşdu. İkinci turda Salome Zurabişvili daha böyük fərqlə prezident kürsüsünə əyləşə bilmişdi. Rusiyanın dünyada mövqeyinin zəifləməsi, şübhəsiz ki, seçkilərə də öz təsirini göstərəcək. İnadkar Saakaşvili isə növbəti seçkilərə ciddi hazırlaşır”.

**İsmayıl Qocayev**

# Ermənilər öz övladlarını türkə nifrət ruhunda tərbiyə edirlər

## Beynəlxalq təşkilatlar Ombudsmanın hesabatı əsasında Ermənistanla bağlı ölçü götürməlidir



**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən Ermənistanın azərbaycanlılara qarşı yürütdüyü nifrət siyasətində uşaqlardan istifadə edilməsinə dair xüsusi hesabat hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara göndərilib.**

*Bu barədə ”Şərq”ə Ombudsman Aparatından məlumat verilib.* Qeyd edilib ki, 18 iyun tarixi dünyada Nifrət Nitqinə qarşı Beynəlxalq Mübarizə Günüdür və bu hesabatın hazırlanmasında da məqsəd Ermənistanın Azərbaycana qarşı apardığı nifrət siyasətində uşaqlardan istifadə olunmasına dair faktların dünya ictimaiyyətinin, eləcə də aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırmaq və nifrət siyasətinin qarşısının alınması ilə əlaqədar təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı çağırış etməkdir.

Azərbaycan və ingilis dillərində hazırlanmış hesabatda uzun illər Ermənistan tərəfindən Azərbaycana qarşı həyata keçirilən nifrət siyasətinə uşaqların alət edilməsi, münaqişə dövründə, o cümlədən İkinci Qarabağ müharibəsi zamanı uşaqların hərbi əməliyyatlara cəlb edilməsi ilə bağlı faktlardan, mediada bununla bağlı qeyd olunmuş məlumatlardan və digər mənbələrdən istifadə olunub.

Qeyd etmək lazımdır ki, Ombudsman Aparatı tərəfindən bundan əvvəl də araşdırmalar nəticəsində əldə edilmiş faktoloji materiallar, sosial şəbəkələrdə və mətbuatda yayımlanan etibarlı mənbələrdən alınmış məlumatlar əsasında azərbaycanlılara qarşı nifrət cinayətləri və nifrət nitqinə dair hesabat hazırlanıb və müvafiq beynəlxalq insan hüquqları qurumlarına ünvanlanıb. Hesabatın tam mətni ilə buradan tanış ola bilərsiniz.

**Ombudsmanın beynəlxalq təşkilatlara hesabat göndərməsini təqdirəlayiq hal kimi dəyərləndirən politoloq İlyas Hüseynovun sözlərinə görə, uzun illərdir Ermənistanda cəmiyyətin bütün sferalarında, o cümlədən də orta məktəblərdə türkfobiya təbliğ edilir, bu, dərsliklərə salınır və erməni uşaqlara xüsusi öyrədilir.**

Erməni uşaqlarına türk düşmənçiliyinin bu şəkildə öyrədilməsinin beynəlxalq hüquqa zidd olduğunu vurğulayan politoloq hesab edir ki, bu, Ermənistanın uzun illərdir yürütdüyü antitürk, antiazərbaycanlı siyasətinin əyani təzahürüdür: ”44 günlük Vətən müharibəsindən sonra Ermənistan cəmiyyətində ciddi ruh düşkünlüyü yaranıb. ”Böyük Ermənistan” haqqında miflər dağıldığı üçün yetkin yaşda olan ermənilər ideyaya inanmırlar. Bunu anlayan erməni lobbi təşkilatları yetkin nəslə təsir göstərə bilməyəcəklərini başa düşdükləri üçün azyaşlı nəsli təsir altına salmağa çalışırlar. Heç kəsə sirr deyil ki, Ermənistanda antitürk siyasəti həyata keçirilir və bu turkfobiya geniş mahiyyət və məzmun daşıyır. Ermənilər öz övladlarını Türkiyə və Azərbaycana nifrət ruhunda tərbiyə edirlər. Belə olan təqdirdə bölgədə sülhü, təhlükəsizliyi, sabitliyi qorumaq çox müşkül məsələyə çevrilir. Hesab edirəm ki, beynəlxalq təşkilatlar Ombudsmanın hesabatı əsasında Ermənistanla bağlı ölçü götürməlidir. Bunu nəzərə alaraq Ermənistan tərəfi də öz davranışlarına və yürüdülən ideoloji xəttə korrektələr etməlidir. Azərbaycan tərəfi bölgədəki sülhün, təhlükəsizliyin və sabitliyin qorunmasının tərəfdarı kimi çıxış edir. Bizim əsas istəyimiz bölgədəki sülhün dayanıqlılığının artırılması, təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsindən ibarətdir. Lakin bölgədə sülhün bərqarar olması üçün Ermənistan tərəfi düşmənçilik ritorikasını, nifrət nitqini kənara qoymalıdır. Əks təqdirdə, Ermənistan bu siyasi xətti davam etdirəcəksə, sülh müqaviləsinin imzalanmasından sonra da bölgədə problemlər qalıcı xarakter daşıyacaq”.

**Şəymən**

# Ermənistan tərəfi sülh müzakirələrinə hazır deyil

## Əslində vasitəçilik missiyasını icra edən Rusiya, o cümlədən Qərb ölkələri də vaxtın uzanmasında maraqlıdır

**“Elə prinsipial məsələlər var ki, onların ətrafında razılaşa bilmirik”. Bunu Ermənistan xarici işlər nazirinin müavini Vaan Kostanyan deyib. Onun sözlərinə görə, hazırda delimitasiya prosesinin neçənci ilin xəritəsi ilə aparılması, Bakı ilə Xankəndi arasında beynəlxalq dialoq mexanizmləri, ”Qarabağ xalqının” hüquqları və təhlükəsizliyi ilə bağlı razılıq yoxdur. Kostanyan bildirib ki, bu məsələlərdə tərəflərin mövqeləri bir-birindən kifayət qədər uzaq olsa da, işlər davam edir:**



”Erməni tərəfi kommunikasiyaların blokadadan çıxarılması, delimitasiya və demarkasiya, eləcə də sülh müqaviləsi mövzuları çərçivəsində mətnlərin müzakirəsi üçün görüşlərə həmişə hazırdır. Biz bütün bu sahələr üzrə nəticənin qeydə alınmasında maraqlıyıq”.

Qeyd edək ki, Ermənistan Baş naziri Nikol Paşinyan Rusiya Baş Qərargahının arxivində olan 1975-ci il xəritəsi əsasında sərhədin demarkasiyasının aparılmasını dəfələrlə gündəmə gətirsə də, Azərbaycan buna razılıq verdiyini açıqlamayıb.

**Politoloq Qulamhüseyn Əlibəyli ”Şərq”ə açıqlamasında bildirib ki, prinsip etibarı ilə Ermənistan tərəfi görüşə, müzakirələrə hazır deyil. Siyasi şərhçinin sözlərinə görə, hazırlığın olmaması və əsas məqamlarla bağlı razılaşmanın əldə edilməməsi ermənilər tərəfindən də etiraf olunur:** ”Əslində vasitəçilik missiyasını icra edən Rusiya, o cümlədən Qərb ölkələri də buna hazır deyil. Görünən odur ki, hələlik regionda sülhün bərqərar olması onların da maraqlarına xidmət etmir. Məsələn, Moskva ilə yanaşı Fransa kimi Qərb ölkələri də bölgədə gərginliyin qalmasında maraqlıdırlar. Hər vasitəçi mövcud gərginlikdən öz mənafeləri naminə sui-istifadə etmək niyyətindədir. Rusiya istəyir ki, Cənubi Qafqazda qalsın, Qərb isə çalışır ki, Rusiyanı sıxışdırıb bölgədən çıxartsınlar. Hətta İrəvanın əliylə Moskvaya qarşı ikinci cəbhə açmaq düşüncəsində olanlar da var. Yəni tərəflərin maraqları müxtəlifdir və bu fonda Ermənistanın yaxın zamanda Azərbaycanla razılığa gələcəyi, hər hansı sənədə imza atacağı ehtimalı çox zəifdir”.

Q.Əlibəyli vurğulayıb ki, Zəngəzur dəhlizi məsələsində də İrəvanın məqsədi prosesi mümkün qədər uzatmaqdır: ”Əlbəttə, görüşlərin keçirilməsi mümkün və təbiidir. Əksər hallarda təmaslar və danışıqlar təxribatları önləmək mahiyyəti daşıyır. Erməni tərəfi ”görüşlərə hazır olduqlarını” bəyan etməklə təxribatların başqa qüvvələr tərəfindən törədildiyini iddia edirlər. Nəzərdə tutulmuş bir neçə görüş var. İstənilən halda mövqelərin getdikcə tam şəkildə aydınlaşması üçün görüşlərin keçirilməsi qaçılmazdır. Prosesi dondurmaqdansa, təmasları sıxlaşdırmağı daha məqsədəuyğun sayıram”.

**İsmayıl Qocayev**

# Mətbuat Şurasında "TikTok"da fəal olan jurnalistlərlə görüş keçirilib

**İyunun 16-da Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə "TikTok" platformasında fəal olan media təmsilçilərinin bir qrupu ilə görüş keçirilib.**




Toplantını giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid son illər "TikTok"un ölkəmizdə populyarlaşdığına diqqət çəkib və bildirib ki, mövcud amil ona həm də informasiyanın yayılması arealı kimi yanaşmanı aktuallaşdırmaqdadır. Bu prosesdə isə jurnalistlərin dahaaktiv iştirakı günün tələbidir. "Mayın 30-da "TikTok" platformasının Şərqi Avropa regionunda dövlət qurumları ilə iş üzrə direktoru Sergey Sokolov, dövlət qurumları ilə iş üzrə meneceri Dmitri Pylev, platforma üzərindəki canlı yayımların Orta Asiya və Şərqi Avropa üzrə direktoru Veqa Sonq, həmçinin, "TikTok"un Azərbaycan üzrə əlaqələndiricisi Emin Axundov Mətbuat Şurasında olub. Bundan əvvəl, mayın 12-də isə "TikTok"un Azərbaycan üzrə əlaqələndiricisi Emin Axundovla görüşmüşdük.Ümumən, "TikTok" maraqlıdır ki, platformada kontent səviyyəli olsun. Buna görə ölkəmizdəki müxtəlif qurumlarla əməkdaşlığa səy göstərir", - deyə R.Məcid vurğulayıb.

MŞ sədri onu da bildirib ki, Azərbaycan jurnalistlərinin"TikTok" müstəvisində səviyyəli kontentin formalaşmasında iştirak imkanları yüksəkdir. O, bu iştirakçılığın xoşagəlməz halların qarşısının alınmasında, informasiya müstəvisində manipulyasiyaların aradan qaldırılmasındakı önəmindən söz açıb.

"Biz nə edə bilərik? Hesab edirik ki, "TikTok" nümayəndələri Azərbaycan jurnalistləri üçün təlimlər keçirə bilərlər. Mövcud istiqamətdə dəstəyimizi göstərə biləcəyimizi vurğuladıq. Xüsusən də gənc jurnalistləri bu platformaya həvəsləndirmək vacibdir", - deyən R.Məcid Mətbuat Şurasının aktiv sosial şəbəkələrdəki aktiv media təmsilçiləri ilə təmaslara üstünlük verdiyini də diqqətə çatdırıb.O, ötən il onlarla keçirilmiş görüşdə Şuranın etik prinsiplərə riayət edilməsinin vacibliyinin vurğulandığı müraciətinin yayıldığını vurğulayıb.

Görüşdə iştirak edən "TikTok"da fəal olan jurnalistlər mövcud platformadakı informasiya yayıcılığı ilə bağlı müxtəlif məqamlara toxundular. Onlar bildirdilər ki, məsələyə önəm verilməsi həm də ölkənin informasiya təhlükəsizliyi baxımından vacibdir. Görüşdə bu baxımdan ayrı-ayrı misallar üzərində dayanıldı. Jurnalistlər, həmçinin, özlərinin səhifələrinin əsassız yerə silinməsi kimi halların mövcudluğunu qabartdılar. Eyni zamanda, ilk mənbə rolunda çıxış edən dövlət qurumlarının mediaya informasiya verilməsinə məsul əməkdaşlarının da "TikTok"da fəallıqlarına ehtiyacın duyulduğunu bildirib, bunun yanlış informasiyaların qarşısının alınması nöqteyi-nəzərdən əhəmiyyətinə toxundular.

*Görüşdə qaldırılan məsələlər qruplaşdırıldı və bildirildi ki, bütün bunlar gələcəkdə "TikTok" rəhbərliyinin Azərbaycan jurnalistləri ilə təmasları zamanı da müzakirəyə çıxarıla bilər.*

**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə 20-dən çox media subyektinin nümayəndələri üçün Finlandiyanın media və böhran kommunikasiyası üzrə ekspertləri tərəfindən "Media və hibrid təhdidlər" mövzusunda seminarlara başlanılıb.**




# "Media və hibrid təhdidlər" mövzusunda seminarlara başlanılıb

Seminarın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli ölkəmizdə informasiya məkanının çoxsaylı təhdid və təzyiqlərə məruz qaldığını, Azərbaycana qarşı aparılan dezinformasiyaların qarşısının alınmasının vacibliyini bildirib. Vurğulanıb ki, bu mövzuda Finlandiyanın qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə belə seminarların təşkili mühüm töhfə olacaq.

Finlandiya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kirsti Narinen bildirib ki, belə seminarların keçirilməsi mediada hibrid təhlükələrin aşkarlanması, doğru informasiya ilə saxta məlumat arasındakı sərhədin müəyyənləşdirilməsi, hibrid təhlükənin olduğu şəraitdə jurnalistlərin düzgün hərəkət edə bilməsi üçün əhəmiyyətli rol oynayır. O qeyd edib ki, seminarlarda risklərin müəyyənləşdirilməsi və necə mübarizə aparılacağına dair mühüm məsələlər müzakirə ediləcək.

İki gün davam edəcək seminarlarda Finlandiyanın Xarici İşlər Nazirliyinin eksperti Vesa Kekale, Milli Audiovizual İnstitutun direktor müavini Leo Pekkala və Fövqəladə Təchizat Təşkilatı "Mediapooli"də Hazırlıq bölməsinin rəhbəri Tero Koskinen "Media savadlılığı", "Finlandiyada media savadlılığı işinin necə təbliğ edildiyi, uğurlu nümunələr", "Keçid periodunda media", "İnformasiya manipulyasiyasının təsviri, informasiya manipulyasiyası üçün ilkin şərtlər", "Medianın rolu: jurnalistika və qərar qəbul edənlər arasında əlaqə", "İnformasiya manipulyasiyasına qarşı dayanıqlılıq: hökumət tərəfindən əks tədbirlər daxil olmaqla bütün cəmiyyət yanaşması", "Finlandiyada ənənəvi medianın situasiya məlumatlılığının təhlili", "Finlandiyada jurnalistika infrastrukturu: Xəbər mediasına güvən" və s. mövzularda çıxış edəcəklər. Eyni zamanda "Azərbaycanın media landşaftında situasiya məlumatlılığının təhlili", "Təhlildə müəyyən edilmiş riskləri necə prioritetləşdirmək, praktikada riskləri necə həll etmək olar?" mövzusunda vörkşopun keçirilməsi nəzərdə tutulub.

*Seminarların yekununda iştirakçılara sertifikatlar təqdim olunacaq.*

# Ağır iş yükü, stress, gərginlik

Jurnalistlər elə həyat yaşayırlar ki, öz sağlamlıqlarını yaddan çıxarıblar

**"Jurnalistləri ayrı kateqoriyaya ayırmaq istəmirəm. Çünki bütün peşə sahibləri, yəni cəmiyyətin hər bir üzvü son vaxtlar xüsusilə, ürəktutmasından dünyasını dəyişir. Özü də çox gənc yaşında".**







*Bunu "Şərq"ə Əməkdar jurnalist Ləman Ələşrəfqızı son vaxtlar media nümayəndələrinin ürəktutmasından dünyasını dəyişməsi hallarının artmasından danışarkən deyib. Onun sözlərinə görə, artıq insanlar heç orta yaşa gəlib çata bilmirlər:* "Əlbəttə, bizim peşənin özəllikləri, stresli tərəfləri, sözü deyə bilməməyin ürəyə yaratdığı fəsadlar var. Jurnalistika heç vaxt bugünkü qədər acınacaqlı duruma düşməyib. Ona görə istisna deyil. Bəzən ədalətli, vicdanında axsaqlıq olmayan insanlar "desəm, öldürərlər, deməsəm, öləm" dillemması qarşısında çar-naçar qalırlar. Demək istədiklərini dilə gətirə bilmirlər. Bütün bunlar təbii ki, ürəkdə yığılır, qalır və hansısa bir fəsad törədir. Lakin istənilən halda Azərbaycanda ölüm gəncləşib. Parlamentdə oturanlara səslənək, ən azından pensiya yaşının azaldılması məsələsini təkid etsinlər. Həmin mövzunu gündəmə gətirsinlər. Adamlar pensiya yaşına çıxa bilmir, artıq 50-55 yaşında dünyasını dəyişirlər. Jurnalist Zülfüqar Hüseynzadə üçün də çox üzüldüm. Sanki ikinci dəfə qardaşımı itirdim. Getdiyi doğma yurdunda vəfat etdi. Allah rəhmət eləsin! Lakin bütünlükdə Azərbaycanda sosial durum, stresli həyat, rifahımızın xoş olmaması sonda belə problemlərə gətirib çıxarır. Kaş, ölkədə sosial vəziyyətimiz düzəlsin, insanlar mənəvi rahatlıq tapsınlar".

**Psixoloq, psixoterapevt, tibbi jurnalist Ramil Nəcəfli isə bildirib ki, ürək xəstəlikləri son vaxtlar cavanlaşıb:** "Jurnalistlərin ürəktutmasından dünyasını dəyişməsi, doğrudan da, onların peşəsinin son dərəcə gərgin, iş yükü və streslərinin həddindən artıq çoxluğunun göstəricisidir. Həmçinin psixoloji portreti incələyəndə məlum olur ki, bu adamlarda içə basdırılmış duyğular, emosiyalar, özünü ifadə edə bilməmək, içinə sindirmədikləri hansısa hadisə, olaylar olur. İnsanın daxilində təzyiq formasında qalır, psixoloji bir partlayışa çevrilir. Bu partlayış ürəktutması, ürəyin anidən dayanması şəklində özünü göstərir. Jurnalistlər o qədər gərgin və stresli həyat yaşayırlar ki, öz sağlamlıqlarını yaddan çıxarırlar, sağlamlıqlarına qarşı laqeyd yanaşmaq məcburiyyətində qalırlar. Vaxtlı-vaxtında müayinələrə getmirlər. Bəzən səhhətlərində hansısa gizli proseslər gedir, xəbərləri olmur. Çek-ap müayinələrinə vaxt tapmır və ya istəmirlər. Günlərin birində də içəridə gedən gizli proseslər nəticəsində ağır ürəktutması və ya digər ankoloji xəstəliklər formasında özünü büruzə verir. Həqiqətən də, son vaxtlar jurnalistlərin ürəktutmasından vəfat etməsi halları onu deməyə əsas verir ki, bu sahədə iş yükü ağır, gərgin və streslidir".

*Qeyd edək ki, axır vaxtlar jurnalistlərin ürəktutmasından dünyasını dəyişməsi halları artıb. Son bir həftədə tanınmış teleoperator Tural Qasımov, "Moderator" saytının rəhbəri, tanınmış jurnalist Zülfüqar Hüseynzadə ürəktutmasından vəfat edib.*

**Sücayət Mehti**

# "Heç nə olmamış kimi davrana bilmərik"

## İmamoğlu "sədr dəyişikliyinə" işarə etdi

**28 May seçkilərindən sonra CHP-də dəyişikliklə bağlı müzakirələr davam edir. Partiyasında dəyişiklik istəyən İstanbul Böyükşəhər Bələdiyyə Başçısı Əkrəm İmamoğlu təşkilatdan gözləntilərini artırıb. Partiyada "heç nə olmamış kimi davrananların" olduğunu deyən İmamoğlu ilk dəfə başqan dəyişikliyi ilə bağlı da danışıb. İmamoğlu dəyişikliyi "nə lazımdırsa" və sədr dəyişikliyi üçün "o cümlədən, lazım gələrsə" şəklində dəyərləndirib.**




"Şərq" türk mediasına istinadən xəbər verir ki, dəyişiklik dedikdə o, "İndiyə qədər sınaqdan keçirdiyimiz üsullarla uğur qazana bilməmişiksə, üsulları dəyişdirməliyik" deyə cavablayıb. İmamoğlu partiyanın ortaq ağılla hərəkət etməli olduğunu bildirib: "Heç nə olmamış kimi davrana bilmərik".

CHP sədri Kamal Kılıçdaroğlu ilə görüşdüyünü və bu görüş zamanı meydanda gördüklərini danışdığını ifadə edən İmamoğlu, "Fikirlərimin heç birinə yox demədi" deyə vurğulayıb.

Kılıçdaroğlu ilə görüşünün çox müsbət keçdiyini deyən İmamoğlu sözünə belə davam edib: "Düşünürəm ki, bu, dəyişikliyə yol açacaq. Bu məsələ İmamoğlunun və ya başqasının şəxsi məsələsi deyil. Bu, sosial bir məsələdir. Bizə ümid vermək lazımdır. Vəziyyətdən razı olmayan böyük bir insan kütləsi var. Yerli seçkilərə qədər məyusluğu aradan qaldırmağımız zəruridir".

**Turan**



# Jurnalistin qəfil ölümü

## Bütün media cameəsini sarsıtdı

**Media cameəsinə ağır itki üz verib. "Moderator.az" saytının redaktoru Zülfüqar Hüseynzadə 52 yaşında dünyasını dəyişib. Azərbaycan mediasının ağır dəyər yükü daşıyan simalarından biri idi Zülfüqar Hüseynzadə.**

Onun vaxtsız vəfat xəbəri həmkarları və ölkə ictimaiyyəti üçün çox ağrılı oldu. Bütün varlığı ilə Vətənə və xalqa bağlı olan, onların acıları və uğurları ilə yaşayan həmkarımızın daşıdığı şərəf missiyası natamam qaldı. Kəlbəcər kəlməsi ilə nəfəs alan dəyərli insan son nəfəsini də elə orada, doğma yurdunda verdi. Doğma yurduna səfər edən jurnalist doğulub boya başa çatdığı Kəlbəcər rayonunun Başlıbel kəndində ürək tutmasından vəfat edib. Jurnalistin nəşi Bərdənin Əliyanlı kəndində, doğmalarının yanında torpağa verilib.

Qeyd edək ki, Zülfüqar Hüseynzadə dünyaya 1971-ci ildə Kəlbəcər rayonunun Başlıbel kəndində göz açıb. Orta məktəbə bu kənddə gedib. Məktəbin əlaçılarından olub. Z.Hüseynzadənin universitet illəri müharibə dövrünə təsadüf edib. Qarabağ müharibəsində könüllü dəstəsində iştirak edib. Universiteti bitirdikdən sonra müəyyən özəl sahələrdə fəaliyyət göstərib. Orta məktəbdə oxuduğu dövrdə jurnalistikaya marağı olub və elə bu maraq da onu mətbuata gətirib. Uzun illər dövri mətbuatda yazıları çap olunub, köşə yazıları ilə tanınıb. Bununla yanaşı, 2005-ci ildə Kəlbəcər rayonundan deputatlığa namizədliyini irəli sürüb. Z.Hüseynzadə 2012-ci ildə Moderator.az xəbər portalını yaradıb.

Başlıbel kəndinin digər sakinləri kimi Zülfüqar bəy də erməni vəhşiliyinin əziyyətini çəkib. Başlıbel qətliamında ermənilər onun da yaxınlarını qətlə yetiriblər. Ailəsi 1993-cü ildə Kəlbəcərin işğalından sonra məcburi köçkün düşüb. Bərdə rayonunun Əliyanlı kəndində məskunlaşıblar. Uzun illər o, çətin, ağrılı məcburi köçkün həyatı yaşayıb.

Kəlbəcər işğaldan azad edildikdən sonra tez-tez ora səfər edib, Başlıbeldə yaxınlarının məzarlarını ziyarət edirdi.

Z.Hüseynzadə 10 uşaqlı ailənin sonbeşiyi idi. Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti və başqa bir neçə universitetin İctimai şurasının üzvü olub. Eyni zamanda Beynəlxalq Liberal Maarifçilik İctimai Birliyinin sədri idi.

52 yaşlı jurnalistin nənəsi 1993-cü ildə Kəlbəcərdən məcburi köçkün düşən zaman vəfat edib. Qadın qaçaqaç məqamında dəfn edildiyi üçün, onun məzarına hər hansı nişan qoyulmayıb.

Yalnız Kəlbəcər işğaldan azad olunandan sonra Zülfüqar Hüseynzadə nənəsinin məzarını tapmaq qərarına gəlib. O, ötən il bununla bağlı Prezident Administrasiyasına icazə üçün müraciət edib və müsbət cavab alıb.

Lakin ötən il hava şəraiti səbəbiylə qadının məzarını tapmaq mümkün olmayıb. Jurnalist bu məqsədlə yenidən ailə üzvləri ilə birgə bu il Kəlbəcərə yollanıb. Hətta aidiyyəti dövlət qurumları tərəfindən media nümayəndəsinə texnika baxımından da dəstək olunub. Onlar 4 gün ərzində qadının qəbiristanlıq olmayan ərazidəki məzarını tapıb geri dönməliydilər.

Lakin Zülfüqar Hüseynzadənin anidən şəkəri yüksəlib. Jurnalist yaxınlıqdakı hərbi hospitala aparılsa da, yolda keçinib. Jurnalistin ölümü ailəsini və dostlarını məyus edib. Mətbuatda jurnalistin vaxtsız ölümü böyük kədərə səbəb olub.

**"Baku post" informaaiya portalının baş redaktoru Elçin Zahiroğlu həmkarı ilə bağlı xatirəsini sosial şəbəkədə paylaşıb:** "Zülfüqar Hüseynzadənin vaxtsız vəfatı hamını sarsıdıb. Şəxsi məsələlərini, problemlərini heç vaxt qabartmayan jurnalistin qəfil ölümü həm də müəyyən suallar yaradıb: birdən-birə nə oldu?

İki il əvvəl onunla eyni binada otururduq. Bir gün halı qəfil pisləşdi. Mən çatanda tərin-suyun içindəydi. Təcili yardım şəkərin birdən-birə düşməsi "diaqnozunu" qoymuşdu. Bizim israrımızdan sonra xəstəxanaya götürmək qərarını verdilər.

Binəqədidəki Məlikov adına xəstəxanaya aparırdılar, yolda dayandırdıq, "Semaşko"ya apardıq. Zülfüqarın istəyi ilə Qənirə Paşayevaya zəng elədim, sağ olsun, az sonra xəstəxanaya gəldi. Yol boyu Rəşad Mahmudovla əlaqə saxlamağa çalışıb ki, Zülfüqarı Gömrük Xəstəxanasına yerləşdirsin. Amma Rəşad doktor telefonu açmayıb.

Həkimlərin dediyinə görə, infarkt öncəsi vəziyyət olub, amma təhlükə keçib. Qərara gəlindi ki, gecə qalsın, səhər tam müayinə olunar. Otaqdan çıxanda qolumdan yapışıb "mən burda qalsam öləcəm" dedi.

Bu vaxt Rəşad doktor Qənirə xanımı yığdı, vəziyyəti bilən kimi təcili yardım briqadası göndərdi. Gömrük Xəstəxanasına çatan kimi anjuya saldılar. 5-6 dəqiqə sonra həkim məni təcili angioqrafiya otağına çağırdı, orda Zülfüqarın böyük ürəyini gördüm, dedi, infarkt keçirir, çox az zaman var, yoxsa bu döyüntülər eşidilməyə bilər...

Beləliklə, Zülfüqar təcili əməliyyata götürüldü, Rəşad doktor stend qoydu. Qənirə xanımın sayəsində Rəşad doktorun operativ müdaxiləsi Zülfüqarı xilas etdi.

Xəstəxanaya gedəndə iki adama xəbər verməyimi istəmişdi - Qənirə Paşayevaya və Elşad Eyvazlıya. Zülfüqar o hadisədən sonra mənə Xızır peyğəmbər deyirdi.

Dağlarda sənə yetişə bilmədiyim üçün bağışla!".

**Z.Hüseynzadənin oğlu Hüseyn Hüseynzadə isə atasını belə anıb:** "Bir gün bu mövzuda nəsə deyəcəyimi heç gözləmirdim. Sözlərə sığmayan, cümlələrin tərsiz qaldığı bir acım var.

Onun mənə hər fürsətdə verdiyi nəsihətlər bu an belə qulağımda cingildəyir.

Yaşadığım acının heç bir zaman tərifi olmayacaq. Atam tək mənə ata deyildi, o, mənim ən yaxın dostum, ən yaxın sirdaşım, bir sözlə, hər şeyim idi.

Hər imkan olduqda parkda gəzməyə çıxardıq. Onunla qurduğumuz o xoş arzular, o xoş istəklər onunla birlikdə torpağa qarışdı.

Atam sadəcə bu dünyadan özünü aparmadı, sevincim, arzularım, hətta gülüşlərim belə onunla birlikdə torpağa gömüldü.

Düzdür, mən atamı sözlərlə ifadə edilə bilməyəcək şəkildə çox sevirdim. Hər oğul atasını sevər, ancaq mən hər zaman onu fərqli hisslərlə, fərqli duyğularla sevirdim, indi də sevirəm, dəyişən tək şey onun olmamasıdır.

Belə bir söz var, Allah deyir kimi məndən çox sevərsən, onu səndən alaram. Hər gecə Allaha dua edirdim atamı, anamı mənə çox görmə deyə, öz canımdan al, onların canına birləşdir, təki onlar sağ olsun, təki onlar xoşbəxt olsun.

Hər insan oğlunun, əlbəttə ki, bir böyük arzusu vardır. Mənim ən böyük arzum, diləyim atama, anama nəvə bəxş etmək idi.

Mən inanıram ki, hər zaman atamın ruhu mənimlə olacaq. Mənə ondan tək qalan sözləri, nəsihətləri deyil, həmçinin bu günə qədər uğraşıb böyük əziyyətlərlə çalışdığı saytı mənə miras qaldı.

20 yaşımın olmasına rəğmən sanki çiyinlərimdə 20 ton yük var. Allahın izni ilə bu çətin günləri atladacam.

Atama söz verirəm ki, onun bu günə kimi əziyyətlə bu yerlərə gətirdiyi saytı hər zaman qoruyacam, nəinki özüm, məndən sonrakı nəsillər də onu idarə edəcək. Atam, yolun düşsə, bu dünyaya bir də gəl!"

**Şəymən**



# "Tam sülhə nail olmaq üçün iki yol var"

## Türkiyəli politoloq: "Ya Azərbaycan müharibə elan edəcək, Ermənistan xəritədən silinəcək, ya da..."

**"Ukrayna böhranına görə Rusiya dostlarının sayını artırmaq və düşmənlərinin sayını azaltmaq üçün fərqli strategiya tətbiq etməklə yanaşı, mövcud vəziyyəti bərqərar etməyə çalışır".**

**Bunu "Şərq"ə açıqlamasında Ankarada fəaliyyət göstərən Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri, politoloq**

Hasan Oktay Zəngəzur dəhlizinin açılması ilə bağlı Ankara və Moskvanın razılığa gəlməsinə münasibət bildirərkən deyib.



"Digəri isə Türkiyə-Ermənistan-Azərbaycan arasında sülhü bərqərar etməklə quru-hava dəmir yolu nəqliyyatını qurmaqdır. Amma Rusiya və İran bu üçtərəfli sülhü qətiyyən istəmir"

O söyləyib ki, 44 günlük müharibə nəticəsində Azərbaycanın yeddi rayonu işğaldan xilas edilsə də, Qarabağ problemi hələ tam həll edilməyib:

"Bundan əlavə, 10 noyabr müqaviləsi ilə keçmiş sovet dövrünü çatdırılma və kommunikasiya xətlərinin açılması maddəsi də hələ qüvvəyə minməyib. Həmçinin bu müqavilədə Zəngəzur dəhlizi mənası yoxdur. Təəssüf ki, Türkiyə ictimaiyyətində belə bir gözlənti yaranıb. Yəni tarixi keçmişi yaxşı bilməklə bu günü və sabahı qurmaq lazım olsa da, məsələləri anlıq gündəm ilə dəyərləndirməyə çalışarkən böyük bir xəyal qırıqlığı yaşayırıq. Ümumiyyətlə Türkiyədə regionun reallıqlarını və əhəmiyyətini bilən çox az adam var. Ona görə də bu məsələlərlə bağlı strategiya hazırlamaq çox çətindir. Həmçinim 1828-ci il Türkmənçay sülh müqaviləsinin nə demək olduğunu görmək lazımdır. Belə bir dəhliz gözləmək indi bizi qeyri-mümkün bir həyatla qarşı-qarşıya qoyur. Çünki Ermənistan öz ərazisindən müstəqil dəhlizin keçməsinə imkan verməz. Digər tərəfdən İran da Fars körfəzi vasitəsilə apardığı Qara dənizin cənub-şimal xəttindəki işinin şərq-qərb Zəngəzur dəhlizi tərəfindən əngəllənməsini istəmir. Rusiya isə Ukrayna böhranına görə daha sakit olsa da, bölgədəki prosesləri İran vasitəsilə istiqamətləndirməyə çalışır. Hətta Ərdoğanın son səfərində ilk dəfə İranın bu dəhlizin açılmasını rəsmi şəkildə əngəllədiyi bildirilib".

*H.Oktay əlavə edib ki, indi edilə biləcək ən mühüm iki hadisə var:*

"Birincisi çətin olandı. Ya Azərbaycan müharibə elan edəcək və Ermənistan xəritədən silinəcək. Bununla da türklər bu dəhlizlə birbaşa əlaqə quracaqlar. Digəri isə Türkiyə-Ermənistan-Azərbaycan arasında sülhü bərqərar etməklə quru-hava dəmir yolu nəqliyyatını qurmaqdır. Amma Rusiya və İran bu üçtərəfli sülhü qətiyyən istəmir. Yəni baxmayaraq ki, Rusiya Türkiyə ilə bu məsələləri ən yüksək səviyyədə müzakirə edir, lakin nəticə əldə olunacağına işarə yoxdur. Hətta noyabrın 10-da imzalanan razılaşmadan təxminən 3 ilə yaxın vaxt keçib, ancaq heç bir irəliləyiş yoxdu. Hər atəşkəsin pozulması isə Rusiyanın bölgədə qalma müddətini uzadacaq. Həmçinin Amerika, Moskva və Avropada aparılan danışıqlar hələlik heç bir nəticə vermədiyindən son günlər toqquşmalar artıb. Rusiya bir tərəfdən bu danışıqlara zəmin yaradaraq sülhsevər xarici siyasət yürüdür, digər tərəfdən isə Ermənistan müxalifətini Paşinyana qarşı çevriliş etməyə sövq edir. Paşinyana vurulan zərbə isə bütün gözləntiləri və danışıqları puç edəcək.

Azərbaycan parlamenti ilk növbədə 1920-ci ildə Ermənistana hədiyyə edilmiş Zəngəzur rayonunu yenidən Azərbaycan ərazisi elan edib beynəlxalq hüquq baxımından mübarizəyə başlaya bilər. Yaxud da bütün bunları bir kənara qoyub, ən qısa zamanda Azərbaycan-Ermənistan-Türkiyə üçlü sərhəd və sülh müqaviləsi bağlanaraq problem kökündən həll olunar".

*Qeyd edək ki, Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu Ankara və Moskvanın marşrutla bağlı artıq anlaşdığını bildirib.*

*Uraloğlu söyləyib ki, İrəvan yenə də şərtlər irəli sürür, Tehran isə layihənin baş tutmasına imkan verməmək üçün yeni yollar arayır. Halbuki Horadizdən Ordubada 166 kilometrlik yeni dəmir yolu çəkiləcək.*

*Onun sözlərinə görə, dəmiryol marşrutunun Ermənistan hissəsinin Zəngəzurdan keçəcək 43 kilometrlik hissəsi ilə bağlı Azərbaycanla Rusiya arasında danışıqlar aparılması nəzərdə tutulub.*

*A.Uraloğlu Türkiyə ilə Azərbaycan arasında yeni nəqliyyat əlaqəsini təmin edəcək Qars-Naxçıvan dəmir yolundan da danışıb:*

*"Ordubaddan Naxçıvanın şimalında yerləşən Vəlidağ stansiyasına qədər olan 158 kilometrlik xətt əsaslı şəkildə təmir olunacaq. Bundan əlavə, xətt Vəlidağdan Ermənistan sərhədinə qədər 14 kilometr uzadılacaq", - deyə türkiyəli nazir deyib.*

**Nihat Müzəffər**

# "Adamın ölüsü var, dirisi var, xəstəsi var..."

## Fazil Mustafa deyib ki, Naxçıvana bilet probleminə təcili əncam çəkilməlidir



**"Yenə bir aydan artıqdır ki, Naxçıvana bileti böyük bir problemə çeviriblər". Bunu millət vəkili Fazil Mustafa deyib. Deputat bəyan edib ki, İran yolu bağlayıb, Naxçıvana bircə təyyarə yolu qalıb:**

"Tələbat varsa artırın təyyarələrin sayını. Bir neçə il öncə bileti 60 manata qaldırdılar, onsuz da bu qiymətə kefindən kimsə Naxçıvana getmir. Adamın ölüsü var, dirisi var, xəstəsi var, doğma yurd həsrəti var. Nədir bu bilet kassasının qarşısındakı zəhlətökən növbələr? 21-ci əsrdə bilet üçün bu qədər növbə olar? Qadını, yaşlısı, uşağı bilirsiniz nə çilə çəkir? Elektron bilet satışını deyirdiniz, hanı o biletlər? Kim məsuliyyət daşıyır buna? Təcili əncam çəkilməlidir".

**İsmayıl**

# Şəhərdə pedofillər gəzir, valideynlər diqqətli olmalıdır

## Psixoloq: "Bu xəstəlikdən əziyyət çəkən insanlar getdikcə artır"






**"Pedofiliya psixi pozuntudur. Özündən yaşca kiçik, kəskin yaş fərqi olan insanlara qarşı cinsi meyildir".**

**Bunu "Şərq"ə psixoloq Elnur Rüstəmov Bakıda pedofilin uşağı qorxutduğu iddiası ilə bağlı danışarkən deyib. Onun sözlərinə görə, adıçəkilən xəstəlikdən əziyyət çəkən insanlar getdikcə artır:**

"Lakin hazırda həmin şəxslərin statistikasını aparmaq bir qədər çətindir. Çünki cəmiyyətdə sözügedən insanların bir qismi mövcud problemdən əziyyət çəkdiklərinin fərqində deyil, digər hissəsi isə bunu gizlədir. Maarifləndirmə işləri aparmaq görəcəyimiz əsas tədbirlərdəndir. Nəticədə insanlar artıq məlumatlı olacaqlar. Ancaq maarifləndirmə işinin düzgün aparılması da önəmli nüansdır. Pedofiliyaya düçar olan adamı valideynləri, yaxınları, doğmaları müşahidə edə bilər. Dərhal bu cür insanların reabilitasiyası üçün tədbirlər həyata keçirilməlidir. Həmin şəxsin and içməsi, bir daha etməyəcəyi barədə söz verməsi ilə məsələyə yanaşmaq yalnız laqeydlik sayılar. Çünki bir insanın həyatından söhbət gedir. Ona görə də vaxtında aşkarlanmalıdır".

Mütəxəssis diqqətə çatdırıb ki, insan özündə belə bir hal müşahidə edərsə, mütləq şəkildə psixoloji dəstək almalıdır: "Belə durumlarda qanunvericiliyə uyğun şəkildə sərt tədbirlər görülür. Bu da faydalıdır. Hüquqi cəhətdən addımların atılması pedofillərin bu işdən müəyyən qədər çəkinməsinə rəvac verə bilər. Bütün hallarda valideynlər diqqətli olmalıdırlar. Övladları ilə profilaktik söhbətlər aparmalıdırlar. Ətrafda pedofiliyadan əziyyət çəkən insanlar gördükdə onu reabilitasiyaya, müalicə almasına təşviq etməlidirlər. Bu gün psixoloji problemdən əziyyət çəkən insanların artmasını texnologiya əsri, internet resurslarının çoxalması, pornoqrafiyanın hansısa formada yayılması ilə əlaqələndirirlər. Bu da doğru təsbitdir. Valideynlərin üzərinə daha çox yük düşür. Uşaqlar yeni dövrün tələblərinə uyğun böyüdülməlidirlər".

Qeyd edək ki, Bakıda pedofilin uşağı qorxutduğu iddia edilir. Şikayətçi Binəqədi rayonu Rəsulzadə qəsəbəsinin sakinidir. Qəsəbə sakini bildirib ki, pedofil onun qızını qorxudub. Həmin görüntülər nəzarət kamerasında öz əksini tapıb. Videoda 35-40 yaşlı kişinin velosiped sürən qızın arxasınca getdiyi, daha sonra qorxmuş uşağın cəld ondan qaçdığı açıq-aydın görünür.

**Sücayət Mehti**



# Rusiyada əvvəlcə gərək varlı balalar ölkəyə qaytarılsın

## Putin hakimiyyəti insanların getməyini istəmirsə, ölkədə sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmalıdır

**"İmkanınız varkən Rusiyaya qayıdın".**

Bunu Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin Ukraynaya hücum səbəbindən ölkədən gedən ruslara çağırışında deyib.

"Ölkədən gedənlərin əksəriyyəti özlərinə qarşı ikinci növ münasibətilə qarşılaşdılar. Gedəndə fikirləşirdilər ki, rahat otura biləcəklər. Bir çox ölkələrdə ruslara iş verilmir, övladları təhsil müəssisələrində zorakılığa məruz qalır", - deyə Volodin bildirib.

**Hadisəni "Şərq"ə dəyərləndirən AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli söyləyib ki, iqtisadi, sosial vəziyyət yaxşı olmayan ölkələrin vətəndaşları başqa yerlərə miqrasiya edir:** "Volodinin çağırışı mənasızdır. Gərək onlar ilk növbədə rus oliqarxlarının varlı balalarını geri qaytarsınlar. Həmçinin onların təhsillərini xaricdə yox, öz ölkələrində aldırsınlar və xarici investisiyaları, alınan dəbdəbəli malikinələrin kapitalını ölkəyə gətirsinlər. Yəni rus hakimiyyəti dəyişimi özündən başlamalıdır. Çünki kimisə nəyəsə dəvət edirsənsə, birinci ona özün riayət etməlisən".

*Analitik əlavə edib ki, Putin hakimiyyəti insanların getməyini istəmirsə, ölkədə sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmalıdır:* "Yalnız ondan sonra vətəndaşlar başqa ölkələrə getməyəcək. Sual yaranır ki, orta statistik vəziyyəti yaxşı olan ruslar niyə yaşamaq üçün başqa dövlətlərə üz tuturlar? Ümumiyyətlə, bu təkcə Rusiyaya aid deyil. Ona görə də düşünürəm ki, Rusiya hakimiyyəti birinci ölkədəki vəziyyəti düzəltməli, sonra vətəndaşlarını geri dönməyə çağırmalıdır".

**Nihat Müzəffər**

# Rəisinin xanımı türkləri düşmən adlandırdı

## Tural İrfan: "Onlar Sasani imperiyasının dirçəlməsinə zəmin hazırlamaq amalındadırlar"



**İran Prezidenti İbrahim Rəisinin həyat yoldaşı Cəmilə Elmülhuda rəsmi televiziyada türklər və digər millətlər əleyhinə fikirlər səsləndirib. Elmülhuda deyib ki, tarix boyu İranın çox düşmənləri olub və onlar arasında türklər də var: "Türklər, moğollar və ərəblər İranın düşməni olsalar da, İran mədəniyyətini sıradan çıxara bilməyiblər".**

İran prezidentinin xanımının sözləri sosial şəbəkələrdə ciddi müzakirə edilib və narazılığa səbəb olub.

**Milli Cəbhə Partiyasının sədr müavini, ilahiyyatçı Tural İrfan deyib ki, Cəmilə Elmülhudanın ərinin və ali dini liderin başındakı qara əmmamə onların seyid olduğu iddiasına görədir. Yəni seyidlər Peyğəmbər nəslindəndir və peyğəmbər ərəbdir:** "Belə çıxır ki, İran prezidentinin xanımı Peyğəmbəri, Əhli Beyti və 12 imamı da "düşmən" hesab edir. Əslində Elmülhuda demək istəyir ki, ərəblərlə ona görə düşməndirlər ki, farsları müsəlman ediblər. Ərəbləri ona görə düşmən hesab edirlər ki, 2-ci xəlifə Ömər bin Xəttab indiki İranı - fəth edib əhalini müsəlman etmişdi. O zaman İraq da Sasanilərin tərkibində idi. Fars şüubiyyəsi Firuz adlı bir agent yetişdirib xəlifəni bıçaqladaraq terror etdilər. Beləliklə, islam tarixində ilk xəlifə qatili iranlılar, farslar oldu. Xəlifəni əbədi düşmən elan etmək üçün Sasani nəslindən olan Büveyhilər dövründə rəvayətlər qondarıldı ki, guya, Peyğəmbərin qızı Həzrət Fatiməni Ömər "öldürübmüş". Həzrət Əlinin oğlu İmam Hüseynin də arvadı Şəhrəbanu sonuncu Sasani şahı 3-cü Yezdəgerdin qızıymış... Farslar hər zaman öz ata-baba dinlərinə, atəşpərəstliyə, Sasani ənənələrinə bağlı olublar. Zaman-zaman İran ərazisində müxtəlif müsəlman dövlətləri qurulub. Ancaq farslar hər zaman daxildə, batində, ürəklərində islama nifrət ediblər. İslamı, müsəlmanları içindən məhv etməyi məqsəd qoyublar. Öncə islamı təhrif edərək Peyğəmbərin Əhli Beytini qalxan, sipər edərək, istismar ediblər, onların adına minlərlə hədis, rəvayət uydurublar. Məsələn, İmamların adından uydurulan çoxsaylı hədislərdə zəncilər, kürdlər, ərəblər, türklər təhqir olunur, onların "cin nəslindən" gəldikləri iddia olunur və s. Şübhəsiz, Əhli Beyt İmamları əsla elə sözlər söyləməyiblər".

*İlahiyyatçı vurğulayıb ki, Qəznəvilər, Səlcuqlular, Səfəvilər, Əfşarlar, Qacarlar türk əsilli idilər və İrana uzun müddət hakim olublar:* "İndiki rejim də bunları "düşmən" adlandırır. Demək, onlar Peyğəmbərin məktubunu cıran və Yəmən valisi Bazana onu öldürməyi əmr edən Xosrovun, Yezdəgerdin, İslamdan əvvəlki Sasanilərin həsrətini çəkirlər. Elə isə adlarını niyə islam qoyublar?! Ona görə ki, üzdə müsəlman görünüb müsəlmanların içinə girib daxildən parçalamaq, dağıtmaq istəyirlər. Nəticədə isə Sasani imperiyasının dirçəlməsinə zəmin hazırlamaq amalındadırlar. Roma papası ilə məxfi danışıqların mahiyyəti, Sistani ilə Papanın bir neçə il əvvəlki görüşündə əksini tapan məsələlərdən biri də bu idi. Fransa ilə, Ermənistanla sıx əlaqələrin də burada rolu var. Hindistanla, Çinlə əlaqələrin ideoloji mahiyyəti islam düşmənçiliyidir. Arzuları İstanbulu və Qüdsü səlibçilərə qaytarmaq və bunun qarşılığında da İraq, Səudiyyə, Yəmən kimi coğrafiyaların Sasani imperiyasının tərkibi olaraq bərpasıdır. İranın apardığı siyasət həmin imperiyanın ideoloji sərhədlərinin bərpası davasıdır. Yəmən, Suriya, İraqda isə demək olar ki, qismən istəyinə nail olub. Belə bir sözün məhz qadın cinsinin dilindən deyilməsi də təsadüf deyil".

**İsmayıl Qocayev**

# Zəngəzur dəhlizinin gerçəkləşməsinə maneə yaradırlar

## Bura bütün rəzilliklərə əl atan İranı və digər regiondankənar qüvvələri aid etmək olar



**"Laçın-Xankəndi yolu üzərində, Ermənistanla sərhəddə yerləşən sərhəd-keçid məntəqəsi istiqamətində rəsmi İrəvanın növbəti dəfə təxribata əl atması məqsədyönlü xarakter daşıyır".**

*Bu barədə siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Analitik vurğulayıb ki, bu təxribatı həyata keçirməkdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin əsas niyyəti Azərbaycanın "humanitar fəlakət" yaratdığı barədə, artıq iflasa uğramış uydurma iddiaları üçün yeni bəhanələr yaratmaqdan ibarətdir:* "Sərhəd-buraxılış məntəqəsindən insanların və nəqliyyat vasitələrinin necə rahatlıqla keçdiyini nümayiş etdirən videogörüntülərin geniş şəkildə yayılması Ermənistanın "humanitar fəlakət" və digər bu kimi klassik cəfəngiyyatlarının yalan və böhtan olduğunu sübuta yetirir. Digər tərəfdən, Azərbaycanın sərhəd-buraxılış məntəqəsindən keçən insanlar da ərazidə xidməti vəzifə keçən azərbaycanlılarla təmasda olur. Onlara qarşı sərgilənən nəzakətli münasibətə şahidlik edir və bir daha Ermənistan hakimiyyətinin, separatçıların yalan danışdığına əmin olurdular. Bu təmaslar, həmçinin etimad mühitinin formalaşmasına zəmin yaradırdı ki, bu da yenə də rəsmi İrəvanın "təhlükəsizliyə beynəlxalq təminatın verilməsi" ilə bağlı iddialarını alt-üst edirdi. Bu prosesin qarşısını ala bilməyən Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribata əl atmaqla sərhəd-buraxılış məntəqəsindən keçən erməni əsilli şəxslərin təhlükəsizliyinə təminat olmadığı mesajını vermək, qorxu və xof yaratmaqla həmin ərazidən hərəkətin mümkün qədər azalmasına cəhd göstərir ki, "humanitar fəlakət"lə bağlı ənənəvi iddialarını davam etdirə bilsin".

Ekspert vurğulayıb ki, rəsmi İrəvanın son təxribatlarının səbəblərindən biri də, çox güman ki, kommunikasiyaların açılması, o cümlədən Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində əldə olunan son razılaşmalarla bağlıdır: "Burada "üçüncü tərəflər"in də təhrikçi kimi iştirak ehtimalı var. İndiki şəraitdə "üçüncü tərəflər" siyahısına Azərbaycan ərazilərinə qanunsuz silah-sursat daşınmasını şəxsi biznesinə çevirən hərbi qrupları və Zəngəzur dəhlizinin gerçəkləşməsinə maneə yaratmaq üçün bütün rəzilliklərə əl atan İranı və digər regiondankənar qüvvələri aid etmək olar".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**



# Laçının təbii ehtiyatlarının həcmi kifayət qədər genişdir

## Bu rayonda həm kənd təsərrüfatı, həm də turizmin inkişafı üçün qədər böyük imkanlar var

**Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın 14 iqtisadi rayonundan biridir. Bu iqtisadi rayon - Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edir. Ərazisi 7448 km?-dir. Bölgənin əlvan metallurgiyanın inkişafı üçün potensialı var. Ərazisində qızıl, civə, xromit, mərmər, perlit, üzlük tikinti daşları koral, və s. faydalı qazıntı ehtiyatları mövcuddur.**

İqtisadi rayon coğrafi mövqeyinə və tarixi abidələrinə görə turistik əhəmiyyət daşıyır. Burada İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər. Şərqi Zəngəzur iqtisadi rayonunun yeni bölgü əsasında müəyyənləşdirilən ərazisində müxtəlif iqtisadiyyat sahələrinin, o cümlədən sənaye, turizm, kənd təsərrüfatı və aqrar sektorun, ilk növbədə, bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi resurslar, həm də potensial var. Düzdür, erməni vandalları və barbarları, xarici havadarlarının dəstəyi və qeyri-qanuni investisiyaları, fəaliyyətləri hesabına Zəngəzurun təbii sərvətlərini talan etməyə nail olublar. Lakin əminik ki, tezliklə onlar bu cinayətlərinin bədəlini ödəməyə məcbur olacaqlar. Şərqi Zəngəzur iqtisadi rayonunun ən mühüm yaşayış məskənlərindən biri Laçındır. Laçın rayonu ölkənin gələcək inkişafında, xüsusilə də iqtisadi sferada mühüm rol oynamağa ən böyük namizəddir. Laçın rayonu həm də iqtisadi cəhətdən böyük potensiala malik bölgələrimizdəndir. Rayonun həm böyük turizm potensialı, həm aqrar, eləcə də sənaye sektorunda müqayisəli üstünlükləri var. İşğaldan öncə rayonda əsas inkişaf etmiş sahə kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq idi. Bununla yanaşı, meyvəçilik, tütünçülük, üzümçülük, taxılçılıq, arıçılıq inkişaf etmiş sahələrdən hesab olunurdu. İşğaldan öncə Laçın rayonunda fəaliyyət göstərən sənaye müəssisələri daha çox xammal növlərinin emalına əsaslanmışdı. Həmçinin zəngin təbii ehtiyatlara malik olan Laçın rayonunda civə, xromit, mərmər, üzlük tikinti daşları və digər faydalı qazıntı ehtiyatları var. Qısa zamanda rayonun dağıdılan iqtisadiyyatının bərpası və Azərbaycan iqtisadiyyatına reinteqrasiyası mümkün olacaq. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı da davam edir. İyunun 14-də və 19-da növbəti köç karvanları Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salınıb. Daha 35 ailə doğma yurda dönüşün sevincini yaşayıb. Köçürülən ailələr, əsasən Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan məcburi köçkünlər arasından seçilib. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Strateji xətt onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətlənib və hazırda da ardıcıllıqla həyata keçirilir. Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Laçın şəhərinə ailələrin yola salınması mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və Laçın Rayon İcra Hakimiyyətinin rəsmiləri iştirak ediblər. Bununla da, Laçın şəhərində 57 ailə, yəni 217 nəfərin daimi məskunlaşması təmin edilib. Laçın şəhərinə köçürülmüş sakinlərin işlə təminatı da həll olunmaqdadır. Bu il Şərqi Zəngəzura qayıdacaq sakinlərə dəstək məqsədilə yaradılacaq (qida, sənaye, yaradıcılıq, tədris, turizm, tekstil və digər xidmətlər) müəssisələrdə 1200 nəfərin işlə təmin olunması nəzərdə tutulub. Hazırda 260 nəfər Laçın şəhər sakini təlimlərə cəlb olunaraq işə qəbul olunub. Laçına köçən və işlə bağlı müraciət edən sakinlərə uyğun vakansiyalar təklif olunur və heç bir məhdudiyyət qoyulmur.

İşğaldan azad edilmiş ərazilərə sosial-iqtisadi həyatın geri qaytarılmasında özəl sahibkarlar əhəmiyyətli rol oynayır. Dövlət həmin ərazilərə yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması üçün əlverişli mühitin yaradılmasını prioritet istiqamətlərdən biri kimi götürüb. Bu məqsədlə 2022-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Proqramın əsas hədəf göstəricilərindən biri azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək də Dövlət proqramının əsas məqsədlərindəndir. Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətini təşviq etmək üçün hökumət artıq bir sıra mühüm addımlar atıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına əsasən, bu il yanvarın 1-dək işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün agentliyə 1339 müraciət daxil olub. Müraciətlərin əhəmiyyətli hissəsi, yəni 873-ü yerli, 466-sı isə 37 ölkəni əhatə edən xarici müraciətlərdir. Türkiyə, Rusiya, Qazaxıstan və Macarıstandan olan sahibkarlar Qarabağ və Şərqi Zəngəzurda investisiya qoymağa xüsusən maraqlıdırlar. Dövlət tərəfindən müəyyənləşmiş sahibkarlığa dəstək mexanizmləri qısa müddətdə bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərin sayını artıracaq.

**Millət vəkili Vüqar Bayramov deyib ki, 2023-cü ilin dövlət büdcəsinə edilən dəyişikliklərə əsasən, daha çox vəsait Qarabağ və Şərqi Zəngəzurun bərpasına yönəldilib.** Ekspert bildirib ki, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərinin artımı üçün əlavə 2 milyard 260 milyon manat ayrılıb: "2023-cü ildə bütövlükdə bu istiqamətə 5 milyard 260 milyon manat vəsait ayrılıb. Bu, "Böyük Qayıdış" prosesinin daha intensiv şəkildə həyata keçirilməsinə, sürətləndirilməsinə və bu istiqamətdə daha çox vəsaitin ayrılmasına imkan verəcək. Şərqi Zəngəzur iqtisadi rayonu strateji, iqtisadi və ən əsası tarixi baxımdan xüsusi əhəmiyyət daşıyır. Şərqi Zəngəzur həmin bölgənin iqtisadi potensialının istifadə edilməsi və genişləndirilməsi aspektindən də vacibdir. Şərqi Zəngəzur da həm aqrar sahədə, həm də təbii ehtiyatlar baxımından kifayət qədər böyük potensiala malik iqtisadi rayondur. Laçın Azərbaycan üçün strateji əhəmiyyət daşıyan rayonlardandır. Coğrafi baxımdan strateji üstünlükləri var, iqtisadi baxımdan ölkəmiz üçün vacibdir. Laçın rayonunun həm təbii ehtiyatlarının həcmi, həm də miqyası kifayət qədər genişdir. Bu, Laçında sənaye müəssisələrinin qurulmasına və inkişaf etdirilməsinə imkan yaradır. Digər tərəfdən isə Laçının təbiəti, relyefi və coğrafiyası rayonda fərqli sektorların inkişafına nail olmağa imkan verir. Bu rayonda həm kənd təsərrüfatı, həm də turizmin inkişafı üçün kifayət qədər böyük imkanlar var. Laçın yenidənqurma və bərpa, həmçinin məskunlaşma mərhələsindən sonra nəinki Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycanın iqtisadi inkişafına xüsusi töhfə verən rayonlardan birinə çevriləcək".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Meyxəbər" lağa qoyuldu

## Televiziyaların belə ucuz şoulara getməsi yaxşı hal deyil

**Dahi Üzeyir bəyin "Biz nec? iş görürük?" adlı felyetonu var. Bilənlər çoxdu. Bilməyənlər də var. Bilməyənlər və ya unudanlar üçün məzmununu qısaca ərz edək. Üzeyir bəy xalq olaraq baş-ayaq işlər görməyimizi irad tutaraq yazır ki, qonşularımız fil düzəldəndə ayılırıq. Halbuki qonşularımız filə qədər bir çox digər "canlılar"ı da düzəldib artıq.**

Biz birdən-birə fildən başlayırıq, o da alınmayanda, geri qayıtmağa - kiçik canlıları düzəltməyə başlayırıq. Beləcə, zaman keçir, qonşularımız yenə bizdən öndə gedir. Üzeyir bəyin bu məşhur felyetonunu bilməyənlər və ya unudanlar dedikdə, həm də televiziya rəhbərlərini nəzərdə tuturuq. Niyə? Çünki yerli televiziyalarımızın rəhbərləri, tv-proqram siyasətini yürüdənlər, buna cavabdeh olanların iş prinsipi "qonşudan qalma dala"dır. Amma ki hər vaxt qonşuların ardınca qaçdıqlarından geri qalırlar. Onlar bizim tv-lərdən çox irəlidədirlər çünki. Belə bir "geridəqalma" hazırda "Space" televiziyasında yaşanır (digər tv-lər heç də istisna-filan deyil). Adını çəkdiyimiz kanal "Meyxəbər" verilişini efirə gətirib. Verilən məlumata görə, verilişin aparıcıları meyxanaçılar Vüqar Əbdülov, Oqtay Kamil, Mehman Əhmədli və Rüfət Nasosnudur. Aparıcı meyxanaçılar Azərbaycan və dünyada baş verən xəbərləri müzakirə edir, şərh verir, fikir bildirirlər. Lakin sözügedən simaların bu cür verilişdə yer alması birmənalı qarşılanmayıb. Sosial şəbəkə istifadəçiləri meyxana ustalarının türkiyəli populyar müğənni Aleyna Tilkidən danışması, Hollivud "ulduzu" Al Paçinonun 83 yaşında ata olması barədə xəbəri müzakirəyə çıxarıb lağa qoymalarını, bu məsələyə şərh vermələrini tənqid ediblər. Üzeyir bəyin felyetonunu nahaq xatırlatmadıq. Bu tip verilişlər illərdir dünya tv-lərində, o cümlədən də Türkiyə tv-kanallarında yayımlanır. Türkiyənin "Kanal D"sində belə bir proqram var; "Neler oluyor hayatda". Proqramın aparıcıları Hakan Ural və Nur Tuğba Namlı günün mövzularını, baş vermiş diqqətçəkən hadisələri müzakirə edirlər. Bu tip verilişlər çoxdur. Az qala, hər tv-kanalda var. Yəni "Space"dəki "Meyxəbər" yeni layihə, yeni təqdimat deyil. Bu, qonşudan qalma geri prinsipi ilə fəaliyyətdir və tamaşaçı belə verilişləri artıq görüb. Veriliş niyə məhz meyxanaçılara həvalə edilib? Bizcə bu sual üzərində də düşünülməlidir. Tv-lərdə bayağı mahnılar, Azərbaycan milli musiqisinə yad elementlərin təbliğ edilməsi uzun zamandır tənqid edilir, hətta Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi mahnıların monitorinqini də apararaq özündə yad elementlər daşıyan, milli əxlaqi-estetik zövqə uyğun gəlməyən mahnıların siyahısını tərtib edərək ictimaiyyətə açıqladı. Həmin siyahıda meyxana janrında yazılmış və ifa edilən bir çox mahnıların və ifaçıların adları yer alır. Meyxana janrının ölkədə dominant şəkil almasına Milli Məclisdə də etirazlar səslənib, millət vəkilləri iradlar bildiriblər. Belə çıxır ki, səslənən iradlar "milçək vızıltısıdır", Dil Komissiyasının rəyi də kağız üstə qalmış mürəkkəb?! Meyxanaçılara tv-proqram aparıcılığının həvalə edilməsində məqsəd bəllidir. Cəmiyyətdə getdikcə üstünlük qazanan janr və onun ifaçıları hesabına "xəzinə"ni doldurmaq. Gəlir əldə etmək qanun pozuntusu deyil. Amma baxır o gəlir, hardan gəlir. 4 meyxanaçını efirə çıxarıb günün mövzularını, həm də bizə aşağı-yuxarı aidiyyəti olmayan mövzuları müzakirəyə çıxarmağın adı, xalqın mənəvi dəyərlərinin üzərindən adlayaraq ucuz yolla kapital toplamaqdır. Aleyna Tilki və ya Al Paçinonun 83 yaşında müəmmalı atalığı bizə çoxmu lazımdır? Bu, sosial şəbəkə deyil ki, biri baxanda, biri baxmasın, görməsin. "əşşi, internetdi də, "tiktokdu da" deyib əl yelləsinlər, ciddi qəbul etməsinlər. "Space" TV, hər halda televiziya ənənələri olan kanaldır. Belə ucuz şoulara gedilməsi heç yaxşı hal deyil. Bir də ki, yüksək intellekt sahibi olan yeni rəhbərliyin belə ucuz şoulara yol açması da təəssüf doğurur.



"Problem bu məhdud çərçivəli janrın ictimaiyyət arasında təbliğ olunması, getdikcə yayılmasıdır"

**Məsələ ilə bağlı "Şərq"ə danışan sosioloq Əhməd Qəşəmoğlu qeyd etdi ki, bu cür neqativ hallar müəyyən bir qrupun öz şəxsi maraqlarını təmin etməyə çalışması hesabına baş verir:**

- Onları ora dəvət edən var. Görürsər ki, hazırda meyxana populyarlaşıb, meyxana ifaçılarına veriliş aparıcılığı təklif edib, tamaşaçı auditoriyasını genişləndirmək, bəyənmə sayı toplamaq və qazanc əldə etmək istəyirlər. Meyxana ifaçıları da təbii ki, həvəslə razılaşır, onların da marağındadır ki, müxtəlif üslublu layihələrdə iştirak etsinlər, daha da populyarlaşsınlar, toylara dəvət alsınlar. Bu, onların reklamına xidmət edir. Gəlin belə danışaq; meyxanaya qadağa qoya bilmərik. İstəsək də buna edə bilmərik. Meyxananın öz yeri, öz dinləyici auditoriyası, sevənləri var. Problem bu məhdud çərçivəli janrın ictimaiyyət arasında təbliğ olunması, getdikcə yayılmasıdır. O dərəcədə ki, hətta buraxılış siniflərinin "Son zəng"ində də meyxana üslubunda mahnılar səslənir, "oğru dünyası"na aid mahnılar ifa edilir. Bunun günahkarı birbaşa Elm və Təhsil Nazirliyidir. Nazirlik işini düzgün qura bilmir, məktəblilərin estetik zövqünün formalaşması üçün ciddi iş aparmır. Bu öz yerində. Musiqilərə gəlincə, ümumiyyətlə, bütün musiqilər mahiyyət etibarilə insanın daxili aləminin kodlaşmasına təsir edir. Əgər biz yeniyetmələrin, gənclərin daxili aləminin zənginləşməsini, estetik zövqünün formalaşmasını və məhz milli, vətənpərvər zəmində formalaşmasını istəyiriksə, meyxana burada heç sonuncu vasitə rolunu da oynamır. Çünki bu janrın özü məhdud çərçivəli, inkişafı olmayan, yerində sayan, yad elementləri özündə daşıyan, estetik baxımdan zəif bir janrdır. Bizə milli hissləri, milli duyğuları, vətənpərvərliyi artıracaq musiqilər, mahnılar lazımdır. Meyxana isə bu vəzifənin öhdəsindən gələ bilməz. Siz baxmayın, meyxana ifaçıları hərdən ölkədən, Qarabağdan, 44 günlük Vətən müharibəsindən oxuyur. Bunlar, "biz də bunlardan oxuyuruq", deyib iradlara qarşı durmaq üçündür. Meyxanalar həmişə bayağı, məişət mövzularına köklənir. Sosial şəbəkələrdə yayılır videolar, məlum olur ki, meyxanalarda narkotik maddələr də bəzən təbliğ olunur, aqressiya, zorakılıq, üzr istəyirəm, hətta söyüş də səslənir. Meyxana əxlaqi-tərbiyəvi baxımdan, milli-estetik zövq baxımından da gəncliyə müsbət nəsə ötürə bilmir. Hesab edirəm ki, bu məsələylə bağlı mütəxəssislər rəy bildirməli və problemə ciddi yanaşmalıdırlar.

**Məlahət Rzayeva**



# Azərbaycan və Rusiyanın birgə təlimləri normaldır

## "Şimal bölgələrində vaxtı ilə terrora meyilli və separatizmi dəstəkləyən bir sıra qurumlar fəaliyyət göstərib"

**"Azərbaycan nəinki Rusiya ilə, digər sərhəddi olduğu ölkələrlə də terrorizm və təhlükəsizliyin təmin olunması məqsədilə birgə təlimlər həyata keçirir".**

*Bunu "Şərq"ə açıqlamasında hərbi ekspert Ramil Məmmədli Azərbaycanın Rusiya Federasiyası ilə sərhədyanı rayonlarının ərazisində "Sərhəd-Sipər" şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçirməsindən danışarkən deyib.*

O vurğulayıb ki, əməliyyatlar hər zaman qarşılıqlı informasiya mübadiləsi və Sərhəd Qoşunlarının əlaqəsi fonunda baş tutur:

"Sərhəd-Sipər" tədbiri də həmin kontekstdə keçirilir. Vaxtilə Azərbaycanın şimal bölgələrində terrora meyilli və separatizmi dəstəkləyən bir sıra qurumlar fəaliyyət göstərib. Bu qruplaşmalarla mübarizə aparmaq üçün isə bir sıra əməliyyatlar baş tutub".

Ekspertin sözlərinə görə, bu, normal bir hadisədir: "Biz bilməliyik ki, Azərbaycanla Rusiya ölkə başçılarının da qeyd etdiyi kimi strateji müttəfiqdir. Ona görə də bu kimi təlimlər, yaxınlaşmalar vacibdir. Yəni hər iki dövlətin hərbi strukturları arasında birgə fəaliyyətin həyata keçirilməsi, birgə təlimlərin olması və hərbi-texniki sahədə əməkdaşlığın mövcudluğu bölgənin təhlükəsizliyi baxımından önəmlidir".

Qeyd edək ki, Azərbaycanın Rusiya Federasiyası ilə sərhədyanı rayonlarının ərazisində "Sərhəd-Sipər" şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilir.

Əməliyyatlar Azərbaycan Respublikası və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən aparılır.

Aparılan əməliyyatlarla əlaqədar Quba, Qusar, Xaçmaz, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarının ərazilərində müvafiq yerlərdə polis postları qurulub.

Bir həftə davam edəcək əməliyyatların əsas məqsədi sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icrasından ibarətdir.

Xatırladaq ki, "Sərhəd-Sipər" şərti adı altında kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər iyunun 25-dək davam edəcək.

**Nihat Müzəffər**

# Jurnalistlər məmnun deyillər

## Çevik və fəal işləyən mətbuat xidmətləri çox azdır

**Sosial Tədqiqatlar Mərkəzi (STM) son dövrlər dövlət qurumlarının mətbuat xidmətlərinin fəaliyyəti ilə bağlı media mənsubları arasında artan müzakirələrdən və onların təşəbbüsündən irəli gələrək, mətbuat xidmətlərinin fəaliyyəti ilə bağlı media mənsubları arasında rəy sorğusu keçirib.**

STM-dən "Şərq"ə bildirilib ki, mətbuat nümayəndələri daim qurumların kommunikasiya siyasətində çatışmayan tərəfləri qeyd ediblər. Eyni zamanda onları qane edən ünsiyyət meyarları da KİV nümayəndələri tərəfindən qeyd olunub. Ümumilikdə, son illər jurnalistlər üçün media qurumları ilə işləmək xeyli rahatlaşıb. Sorğuda iştirak edən jurnalistlər də qeyd edir ki, təxminən 10 il əvvəl ilə müqayisədə informasiyaları dəqiqləşdirmək, məlumat almaq, mövqe öyrənmək xeyli asanlaşıb. KİV işçiləri düşünür ki, əslində mətbuat xidməti rəhbərliklə mətbuat arasında vasitəçi rolunu oynamalıdır. Mətbuat katibləri bəzən çalışırlar ki, işlədikləri qurum barədə mənfi xəbərlər yayılmasın. Jurnalistin baş verən hadisəyə çevik yanaşması həm də məsələnin birbaşa bağlı olduğu dövlət qurumundan asılıdır. Mətbuat katibinin sorğulara operativ cavab verməsi həmin qurumla bağlı dezinformasiyaların yaranmasına imkan vermir. Sosial Tədqiqatlar Mərkəzi sadalanan məsələləri nəzərə alaraq 26 may - 06 iyun 2023-cü il tarixləri arasında 384 nəfər jurnalist arasında telefon üsulu ilə rəy sorğusu keçirib. Sorğuda iştirak edən media mənsublarına ünvanlanan ilk sual mətbuat xidmətlərinin fəaliyyətinə məmnunluq yanaşmasını ortaya çıxarıb.



"Azərbaycanda dövlət qurumlarının mətbuat xidmətlərinin fəaliyyətindən razısınızmı" sualına 78.1 faiz "qismən razıyam", 12.8 faiz "tam razıyam", 8.6 faiz "heç razı deyiləm" cavabını verib. 0.5 faiz respondent suala cavab verməkdə çətinlik çəkib. Jurnalistlər bəzi qurumların media fəaliyyətini bəyənsələr də, digər qurumların bu sahədəki fəaliyyətindən narazılıq ifadə edib. Nəticədə "qismən razıyam" cavabı verənlər üstünlük təşkil edib.

Sorğuda iştirak edənlərə "Mətbuat xidmətlərinin fəaliyyətində hansı meyarları vacib hesab edirsiniz" sualı ünvanlanıb və bir neçə cavab variantı seçmək imkanı verilib. Media nümayəndələrinin əsas hissəsi, 69.8 faizi hadisələrə operativ reaksiya vermək ənənəsi, 51.0 faizi jurnalistlərə qarşı ayrı-seçkilik edilməməsi və 46.1 faizi jurnalistlərlə fəal ünsiyyət bacarığı meyarlarını vurğulayıb.

KİV mənsublarını narazı salan məqamları aydınlaşdırmaq üçün onlara bu istiqamətdə sual ünvanlanıb. "Mətbuat xidmətlərinin fəaliyyətində sizi narazı salan əsas nüanslar hansılardır" sualına verilən cavablara əsasən, medianın sorğularına gec reaksiya verilməsi məsələsi, rəhbərliyin təsdiqini gözləmək məsələsi ilə sorğuların cavablandırılmaması, jurnalistlər arasında ayrı-seçkilik edilməsi məsələləri sorğuda önə çıxan əsas problemlər kimi müəyyən olunub.

Jurnalistlərə həmçinin qurumların mətbuat xidmətlərinin böhranlı situasiyadakı işləri ilə bağlı sual ünvanlanıb. Qeyd edək ki, böhran menecmenti klassik idarəetmə yanaşmasından fərqli bir sıra unikal xüsusiyyətlərə malikdir. Böhran menecmentinin əsas məqsədi böhranları qabaqlaya biləcək, onların növlərini fərqləndirən, böhrana qarşı tədbirlər görə bilən, eyni zamanda keçmişdə olmuş böhranlardan yeni şeylər öyrənən və ən sürətli şəkildə özünü toparlaya bilən təşkilatlar yaratmaqdır. "Qurumların mətbuat xidmətləri fors-major hallara və böhranlı vəziyyətlərə dair böhran kommunikasiyasında uğurlu fəaliyyət göstərirmi" sualına sorğuda iştirak edənlərin 56 faizi "xeyr", 34.4 faizi "bəli" cavabını verib. Respondentlərin 9.6 faizi bu suala cavab verməkdə çətinlik çəkib.

Sorğu nəticələrindən aydın olur ki, ümumi mənada qurumların böhran kommunikasiyası siyasəti KİV nümayəndələri tərəfindən bəyənilmir. Lakin bu sahədə kifayət qədər çevik və fəal işləyən mətbuat xidmətləri də mövcuddur.

**Sözügedən sorğuda iştirak edən, "Axar.az" saytının müxbiri Turanə Məmmədli "Şərq"ə açıqlamasında deyib:** Mən rəsmi qurumlarla işləmirəm - müxbirlərimiz sorğu göndərir. Cavab ala bilmədiyimiz qurumlar Baş Prokurorluq, Nazirlər Kabineti, Səhiyyə Nazirliyidir:

"Ən böyük narahatlığım isə bəzi mətbuat katiblərinin media üzərində "ağalıq" etmə istəyi ilə bağlıdır. Unudurlar ki, mətbuat katibi də elə jurnalist fəaliyyəti ilə məşğul olmalıdır. Hansı "səlahiyyətlə" onlar zəng edib "bunu belə yazın, onu belə edin, bu xəbəri silin" deyə əmr edə bilirlər!? Bu "haqqı"onlara kim verib bilmirəm. Media ilə necə danışmaq lazımdır, onu öyrənsələr, daha yaxşı olar. Narazılığım olan bir məqam isə mətbuat katiblərinin öz işini şəxsi dostluq münasibətləri fonunda qurmasıdır. Hansısa bir qurumun mətbuat xidməti əməkdaşlarının jurnalistlərlə dostluq etməsində qəbahət görmürəm, lakin bu dostluq onların işdən kənar həyatında əks olunmalıdır. Bəzən dövlət qurumlarının mətbuat xidmətinə sorğu göndəririk, üstündən bir müddət keçdikdən sonra sorğunun cavabını başqa bir saytda görürük. Bu isə peşə etikasına və vəzifə səlahiyyətlərinə zidd olan bir şeydir. Sevindirici halisə odur ki, yaxşı mətbuat katiblərimizin sayı kifayət qədər çoxdur.

**"Bakı vaxtı.az" saytının müxbiri Xəyalə Rza isə deyib ki,** Bakı Nəqliyyat Agentliyi, Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayanda qısa vaxt ərzində suallarımızı cavablandırıblar.

STM-nin sorğusunda iştirak edən digər jurnalist Nigar Məhərrəmin sözlərinə görə, bəzi mətbuat katiblərinin fəaliyyəti formal xarakterlidir. Əksəriyyəti jurnalistlərin suallarına şablon cavablar verirlər: "Olur ki, hansısa hadisə ilə bağlı sorğu göndərib detallı məlumat istəyirsən, lakin cavab ya çox qısa, ya da ki "bizdə belə bir məlumat yoxdur" olur. Xüsusən də statistik rəqəmlər lazım olduqda cavab almaqda çox çətinlik çəkirik. Sözsüz ki, işini məsuliyyətlə yerinə yetirən mətbaut katibləri də yox deyil. Energetika Nazirliyinə göndərdiyim sorğuların cavabı kifayət qədər əhatəli olur. "Azərgold"un mətbuat xidmətinin fəaliyyətindən də razıyam. "Azəravtoyol", Statistika Komitəsindən də məlumat ala bilirik".

**"Metbuat.az" saytının müxbiri Gülər Seymurqızı isə deyib ki, dövlət qurumlarının mətbuat xidmətlərinin jurnalistlərlə daim əlaqədə olması çox vacibdir.** Bəzən elə olur ki, məsələ ilə bağlı aidiyyəti quruma sorğu göndəririk, sorğuya mətbuat xidməti tərəfindən cavab veriləndək (bu vaxt 14 gün çərçivəsində dəyişir) artıq məsələ ya gecikir, ya da həll olunmuş olur: "Sevindirici haldır ki, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Xarici İşlər Nazirliyi daim sorğularımıza cavab verir. Yeni fəaliyyətlərindən ən çox razı qaldığım mətbuat katibi məhz bu qurumların əməkdaşlarıdır. Digər qurumlar da mesajlara cavab verir, ancaq məlumat olmur, ya da istədiyimiz cavabı ala bilmirik".

**Şəymən**

# Çimərliyə planlı şəkildə getmək lazımdır

## Bəzi hallarda adına istirahət dediyimiz əyləncənin də təhlükəli tərəfləri olur

**"İnsanlar yay mövsümündə istirahətlərini xoş vaxt keçirmək, sərinləmək üçün əsasən çimərlik, dəniz qırağı, su hövzələrinə üz tuturlar. Lakin təhlükələr, bəzən də bədbəxt hadisələr qaçılmaz olur".**

*Bunu "Şərq"ə təhlükəsizlik eksperti Elmar Nurəliyev dəniz mövsümündə insanların boğulma riskləri barədə danışarkən deyib. O vurğulayıb ki, çimərlikdə təhlükəsizlik qaydalarına ciddi şəkildə riayət edilməlidir:* "Bir neçə dəfə bu qaydaları heçə saysalar da, unutmayaq ki, sonluq bədbəxt hadisə ilə nəticələnə bilər. Çimərliyə planlı şəkildə getmək lazımdır. Bəzi hallarda adına istirahət dediyimiz əyləncənin də təhlükəli tərəfləri olur. Fəaliyyətinə çimərliklərin icazə verilən, xilasetmə xidməti olan çimərliklərdən istifadə etməliyik. Hava şəraiti də nəzərə alınmalıdır. Küləkli, dumanlı, çiskinli havada, günün qaranlıq saatlarında çimərliyə getmək qadağandır. Nəticədə bədbəxt hadisə qaçılmaz olur. Bəzən hətta çimərliyə sərxoş vəziyyətdə də gedirlər. Həmin şəxslər dəniz sahilində istirahət edənlərə də narahatlıq yaradır. Həm də sərxoş vəziyyətdə suya girərkən boğulma riski 3 dəfədən çox artır. Ona görə də mütləq elementar təhlükəsizlik qaydalarını bilmək, əməl etmək mühümdür. İnsanlar üzmək üçün nəzərdə tutulan məsafəni keçməməlidirlər. Həmin yer xüsusi nişanlar, toplar vasitəsilə fərqləndirilir, işarə edilir. Əyləncə üçün hər hansı daş parçasının üstündən suya tullanmaq da yolverilməzdir. Bəzi vaxtlar bu qayalıqların dibində boşluqlar olur. Boğulma hadisələrinin də çoxu həmin boşluqlarda baş verir".



Ekspert diqqətə çatdırıb ki, bəzi valideynlər uşaqları nəzarətsiz qoyur:

"Hər il dəfələrlə bu kimi halların şahidi oluruq. Valideyn çimərlik sahilində uşağını axtarır. Kənardakı şəxslərə qarşı da diqqətli olmaqda fayda var. Dəfələrlə adamın yanındakı şəxs suda boğulub, amma o, fərqinə varmayıb. Hər çimərliyin özünə aid müəyyən xüsusiyyətləri də olur. Məsələn, elə çimərliklər var ki, suyun sütun dərinliyi sahilə paralel, perpendikulyar dalğavari xətt üzrə axın edir. İnsan müəyyən qədər bir xətt üzrə irəliyə getdikdən 1-2 metr sonra eyni yerdə artıq dayana bilmir. Həmin hissədə su başından yuxarı olur. Ona görə də insan getdiyi çimərliyin xüsusiyyətlərini bilməlidir".

*Qeyd edək ki, insanlar artıq dəniz mövsümünü açıq elan edib. Çox təəssüf ki, bəzən çimərliklər bədbəxt hadisələrə də yol açır. Məsuliyyətsizlik edərək, dənizin qadağa qoyulan hissəsinə keçirlər. Nəticədə boğulma halları qaçılmaz olur. Sonu da facİə ilə bitir.*

**Sücayət Mehti**

# Kartof-soğan da bahalaşıb

## Ekspert bunu əkin sahələrinin azalması ilə əlaqələndirir



**"Azərbaycanda kənd təsərrüfatı məhsullarının mövsümü xarakterli qiymətinin dəyişməsi bir çox amillərlə bağlıdır. Meyvə satışında doğrudan da, ucuzlaşma hiss olunur, müəyyən qədər bolluqdur".**

*Bu sözləri "Şərq"ə iqtisadçı Natiq Cəfərli soğan və kartofun qiymətinin enməməsindən danışarkən deyib. Onun sözlərinə görə, tərəvəz, o cümlədən, kartof və soğanın qiymətinin dəyişməməsi əkin sahələrinin azalması ilə əlaqəli ola bilər:* "Yaxud da məntiqlə düşünsək, bəzi rayon və cənub bölgələrində hava şəraiti ilə bağlı məhsuldarlığa təsir edə biləcək problemlər yaşandı. Sel gəldi, daşqınlar oldu, müəyyən təbiətdən doğan problemlər baş verdi.

Böyük ehtimalla kartof və soğanın əkildiyi ərazilərə daha çox ziyan dəyib, nəticədə də məhsulun həcmində müəyyən dərəcədə azalma müşahidə olunur. İqtisadiyyatın qanunu da belədir, hansı mal və məhsulun həcmi azalırsa, avtomatik olaraq, qiyməti yüksəlir. Səbəbləri barədə də ictimaiyyətə məlumat verməli olan orqan Kənd Təsərrüfatı Nazirliyidir. Bu tip məsələlərdə onlar daha operativ və vətəndaşları bilgiləndirəcək informasiyalar verməlidirlər".

*Qeyd edək ki, bazarda meyvətərəvəz bolluğudur. Bir çox mövsümi meyvələrin qiymətində enmə müşahidə olunur. Lakin soğan və kartofun qiyməti dəyişmir. Alıcılar da iddia edir ki, adıçəkilən məhsullar bolluq təşkil edir. Amma qiymətlər düşmür, əksinə, artır.*

**Sucayət**

### Bəzən piyadalar yol keçərkən telefonla danışır

Sürücünün də mənafeləri, rolları, imtiyazları nəzərə alınmalıdır



**"Qanunvericilikdə sürücülərin cərimələnməsi məsələsi öz əksini tapıb. Birmənalı şəkildə piyada keçiddə hərəkətdə olduğu halda sürücü yol verməsə, bu, qanun pozuntusu sayılır".**

Bunu "Şərq"ə nəqliyyat eksperti İlqar Hüseynli sürücülərin 50 manat cərimələnməsindən danışarkən deyib. O vurğulayıb ki, cərimə 50 manat müəyyənləşdirilib: "Bəzi hallarda piyadanın da sürücüyə problem yaratdığı məqamlara şahid oluruq. Dəfələrlə müşahidə etmişəm, piyada anidən qaçaraq, yola çıxır. Piyadalar üçün nəzərdə tutulan yol ötürücüsünü keçirlər. Bəzən sürücü uzaq məsafədən piyadanın yol ötürücüsünün kənarında dayandığını müşahidə edir. Nəqliyyat vasitəsi keçidə yaxınlaşanda piyada hərəkətə başlayır. Bu tipli durumlarda Dövlət Yol Polisi (DYP) əməkdaşları protokol tərtib edərkən ədalətli, prinsipial yanaşma ortaya qoymalıdır. Sürət aşağı olanda qəza vəziyyətini əngəlləmək mümkündür. Amma şəhərin daxilində saatda 60 km sürət həddi müəyyənləşdirilib. Bir neçə piyada zolağı (zebra) quraşdırılıb. Belə hal olanda sürət həddini birdənbirə endirib, qəza vəziyyəti yaratmaq da sürücülər üçün təhlükəlidir. Ona görə piyadalar da son dərəcədə diqqətli davranmalıdırlar. Piyadalar da piyada keçidində hazırlıq mərhələsini elə nizamlamalıdırlar ki, sürücü onu əvvəlcədən müəyyənləşdirə bilsin. Sürücülərlə piyadalar arasında qarşılıqlı dəyər və sayğı olmalıdır. Piyada da sürücünü uzun müddət keçiddə saxlamamağa çalışmalıdır. Bəzən piyadalar yol keçərkən telefonla danışır. Hətta hərəkət üstünlüyü olduğunu bildikləri üçün ayaq saxlayıb, telefona cavab da verməyə vaxt ayırırlar. Sürücünün mənafeləri, rolları, imtiyazları nəzərə alınmalıdır. Ümumilikdə isə hərəkətdə olan piyadalara yol vermək sürücülərin borcudur. Sürücü qəza şəraiti yaradırsa, nəinki 50, 100 manat da cərimələnməlidir".

*Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 330-cu maddəsinə əsasən, nizamlanmayan piyada keçidinə daxil olmuş piyadaya yol verməyən sürücülər 50 manat miqdarında cərimə edilirlər.*

**Sücayət Mehti**


**Elanlar**

"Home Baku" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1002293121) bildirir ki, Cəmiyyətin Təsisçilərin Ümumi Yığıncağının qərarı ilə MMC-nin nizamnamə kapitalı azaldılaraq 50 (əlli) manat müəyyən edilmişdir.

Yardımlı Aqrotexservis ATSC-5600054991 Emissiya prospektinin itməsi ilə bağlı etibarsız sayılır.

TRN ASC-1200131701 Emissiya prospektinin itməsi ilə bağlı etibarsız sayılır.

Azərticarəttexnika ATSC-1500185991 Emissiya prospektinin itməsi ilə bağlı etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Məmmədşərif Həmidov (keçmiş Şərifzadə) küçəsi, 196 saylı binanın 342-ci mənzilinə və həmin binanın zirzəmisində yerləşən 78 saylı avtomobil dayanacağına (qaraja) dair "Şazi" MMC ilə Sadıqov Vahid Nəriman oğlu arasında bağlanmış 2005-ci il tarixli alqı-satqı müqavilələri və maliyyə arayışları itdiyi üçün etibarsız hesab olunur.



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti, Samirə Ərəblinskaya

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA00603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1600



## Kral ailəsinin "Atalar günü"
### Fotolar böyük maraqla qarşılanıb

**Böyük Britaniya krallığı "Atalar günü"ylə bağlı maraqlı fotolar paylaşıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, paylaşımlarda həm hazırkı kral Çarlzın öz atasıyla, həm də övladlarıyla birgə bir zamanlar çəkdirdiyi fotolar, həm də şahzadə Uilyamın 3 övladı ilə fotoları yer alıb. Şahzadə övladlarıyla kamera qarşısına keçərək obyektivə gülümsəyib. Bundan əvvəl kral ailəsi üzvləri kral Çarlzın tacqopma mərasimində bir araya gəlib. Kral ailəsi "Atalar günü"nü görməzdən gölməyib və mehriban ailə ortamında çəkilmiş fotoları İngiltərə ictimaiyyətiylə paylaşıb. Şahzadə Uilyam da övladları şahzadələr - George, Charlotte və Louis ilə birlikdə fotolar çəkdirib. Kral ailəsinin rəsmi sosial media hesabında Kral Çarlzın atası şahzadə Filip ilə, kraliça Camillanın da atası Bruce Shandla fotolarının paylaşılması böyük maraqla qarşılanıb.

**Məlahət**

## İstilərdən ölənlərin sayı 166-ya yüksəlib
### Bütün məktəblər iyunun 24-dək bağlanıb



**Son günlər Hindistanın şimalında şiddətli istilər səbəbindən həyatını itirənlərin sayı 166 nəfərə çatıb.**

Azərtac xəbər verir ki, qızmar hava Uttar Pradeş ştatında 119, Bihar ştatında isə 47 nəfərin ölümünə səbəb olub.

Uttar Pradeş ştatının Ballia şəhərində xəstəxana dolduğundan istinin təsirinə məruz qalan xəstələrin qəbulu dayandırılıb, morqda yer çatışmadığı üçün ölənlərin yaxınları cəsədləri evlərinə aparmalı olub.

Bir neçə gündür ki, ölkənin şimalında temperatur 43,5 dərəcədən aşağı düşmür. Meteoroloqlar anomal istilərlə bağlı rəsmiləri əvvəlcədən xəbərdar etdiklərini bildiriblər. Yerli hökumət kondisioner və soyuducuların problemsiz işləməsi üçün fasiləsiz enerjinin təmin edilməsi məqsədilə lazımi tədbirlər görüldüyünü açıqlayıb.

Bihar ştatının paytaxtı Patnada bütün məktəblər iyunun 24-dək bağlanıb.

## "Dondurucu tipli soyuducunu hardan almaq olar?"
### Ana və qızlarının meyitlərini parçalayan qatil qəssablardan bu sualı soruşub



**Ötən gün bir evdən 4 nəfərin meyitinin tapılması barədə məlumat vermişdik.**

Milli.Az haberler-ə istinadla bildirir ki, ötən gün İzmirdə baş verən dəhşətli cinayətlə bağlı yeni məlumat əldə olunub.

Türkmənistan əsilli qadını və iki qızını öldürüb, meyitlərini parçalayan qatilin məhlədəki qəssablarla söhbət etdiyi üzə çıxıb. Məlum olub ki, o qəssablardan "dondurucu tipli soyuducunu hardan almaq olar?" sualını soruşub.

*Qeyd edək ki, öldürülən şəxslərin adları Gülkamar Hanimova, qızları Leyla Geldiyazova, Laçin Geldiyazova və Ruslan Kerimovdur.*

## Arda Turan 3-cü dəfə ata olur



**Türkiyənin ulduz futbolçusu Arda Turan həyat yoldaşı Aslıhan Doğan Turan cütlüyündən yeni xəbər gəlib.**

Aslıhan Doğan Turanın hamilə olduğu öyrənilib.

Cütlük 3-cü uşaqlarını qucaqlarına almaq üçün gün sayır.

Qeyd edək ki, Aslıhan Doğan Turan daha əvvəl qız uşağı istədiklərini dilə gətirib.

Həmzə və Aslan adlı iki uşağı olan Aslıhan Doğan açıqlamalarının birində 4 uşaq istədiklərini bildirib:

"Həmzəni qucağımıza aldıq, çox ara vermədən 2-ci, 3-cü, 4-cü uşaqlarımızın olmasını planlaşdırırıq".

## Toydan 6 ay sonra övladları oldu



**54 yaşlı müğənni Mark Entoni ilə həyat yoldaşı, 23 yaşlı "Miss Paraqvay 2021 gözəli" Nadya Ferreiranın övladı olub.**

Axşam.az xəbər verir ki, bu barədə ifaçı instaqram hesabında məlumat yayıb.

O, övladının fotosuna "Tanrının seçdiyi vaxtı mükəmməldir. Atalar gününüz mübarək" şərhini yazıb.

*Qeyd edək ki, Entoninin müğənni-aktrisa Cennifer Lopezdən 2008-ci ildə Maks və Emmi adlı iki əkiz uşağı dünyaya gəlib. Ümumilkdə 7 övladı olan müğənninin bu, 4-cü evliliyidir. Onlar yanvarın sonu nikah masasına əyləşmişdilər.*





# "İlan körpə"
## Atasına verilmədi



**Türkiyənin Uşaq bölgəsinin Eşmə əyalətində nadir dəri xəstəliyi ilə doğulmuş, xalq arasında "ilan körpə" adıyla məşhurlaşan körpə Gökdənizlə bağlı atasının atalıqdan imtina tələbi üzrə başladılan məhkəmə prosesi iki il yarım sonra yekunlaşıb.**

Məhkəmədə körpənin anası Ela Fidan "Gökdənizin dərisi qanamasın deyə hər saatdan bir krem sürtdüyüm zamanlar atasının ona qarşı insafsız davranışları ürəyimi dağlayırdı", deyib. "Şərq" "ntv.com.tr"yə istinadən bildirir ki, Gökdəniz 2021-ci il yanvarın 25-də "Harlequin tipli iqtiyozis" xəstəliyi ilə dünyaya gəlib. Körpənin anası Ela Fidan və atası Musa T. 3 ay öncə boşanmaq üçün Eşmə İlk Hüquq Məhkəməsinə müraciət ediblər. Körpə dünyaya gəldikdən sonra atası Musa T. atalıqdan imtina ilə bağlı iddia qaldırıb və DNA analizi aparılmasını istəyib. Körpənin anası isə bundan əvvəl Manisada eyni iddia üzrə məhkəmədə qalib gəlmiş vəkil Zeynəb Abcıya müraciət edib. Vəkillər Zeynəb Avcı və Əhməd Ocak da məhkəməyə müraciət edərək DNA testi aparılmasını tələb ediblər. İzmir Ədli Tibb Qurumu Bioloji İxtisas Dairəsi tərəfindən Gökdənizdən, o cümlədən ana və atasından alınmış nümunələr üzərində DNA testi aparıb. Məhkəməyə göndərilən sənəddə Musa T.nin körpənin atası olmasına dair 99 faiz dəqiqlik əldə edildiyi qeyd edilib. Lakin "ata"nın vəkilləri DNA testinə etiraz edib. Eşmə İlk Hüquq Məhkəməsi cütlüyün boşanmasına dair qərar çıxarıb, körpəyə isə ana atası - babası Sait Fidanı qəyyum təyin edib. Bu dəfə "ata" ana tərəfdən babanın körpənin qəyyumu təyin edilməsinə etiraz edib. İzmir Bölgə Ədliyyə Məhkəməsi də etirazı nəzərə alaraq körpəyə üçüncü tərəfin nümayəndəsi - Uşak Vəkillər Palatasının üzvünü qəyyum təyin edib. Eşmə İlk Hüquq Məhkəməsi isə "ata"nın atalıqdan imtina iddiasını rədd edib. Körpənin anası isə atalıq davasından çox, körpəsindən qan alınmasının ürəyini ağrıtdığını söyləyib: "Atası bu davanı açmaqla qürurumu, namusumu ayaqlar altına atdı. Amma məni üzən bu deyil. Mən körpəmdən qan alınarkən onun inciməsinə, ağrımasına daha çox üzülürəm. Gökdənizin dərisi kövrəkdir, ən xırda müdaxilə onu incidir, dərisi qanayır. Körpənin xəstəliyini bilə-bilə ona bu acını yaşatdağı üçün Musanı bağışlamıram".

**Məlahət**



## "Yaşamaq üçün 2 söz bilirdim"
### "Hindli dayı"nın türk videoları hadisə oldu



**Türkiyədən 4600 kilometr uzaqda yaşayan "Hindistanlı dayı" Cemalettin Çennankulavan həm türkcəsi, həm də Türkiyə haqqında bildikləri ilə təəccübləndirir. 4 il Türkiyədə yaşayan və magistr dərəcəsi alan Cemalettin gəlməmişdən əvvəl yaşamaq üçün 2 söz bilsə də, indi yutub kanalında minlərlə baxışı olan türk videoları istehsal edir.**

Ailəsi ilə Hindistanın cənubunda yaşayan Cemalettin Çennankulavan (27) bir şirkətdə biznes analitiki işləyir. 4 il Türkiyədə qalıb magistr təhsili alan Cemalettin məktəbi bitirdikdən sonra ölkəsinə qayıdıb. O, yutub və sosial şəbəkələrdə türkcə məzmunlar hazırlayıb həm pul qazanır, həm də dilini təkmilləşdirir. Türkiyəyə gəldikdən sonra türk dilini öyrənir. Gəlməzdən əvvəl acından ölməmək üçün ancaq su və çörək sözünü bilirdi. Daha sonra bir il türk dili kursuna getdi və çox yaxşı dostlar qazandı və dil sahəsində özünü təkmilləşdirdi.

Türkiyəyə gəlməmişdən əvvəl ölkə haqqında heç bir təsəvvürü yox idi, amma araşdırdıqca iki ölkə arasında keçmişdən qardaşlıq münasibətlərinin olduğunu gördü. Onun İstanbulla bağlı da müəyyən məlumatları var idi. O, bu məlumatları Amerika və ya Hindistan filmlərinə baxanda əldə etmişdi. Bir dostu Türkiyəyə oxumağa gedəndə özünü Türkiyədə gördü. Daha sonra o, hər şeyə o qədər qucaq açıb ki, yutubda "Hindi Dayı" adlı kanal açıb və türk videoları istehsal etməyə başlayıb.

Cemalettin Çennankulavanın atası Səudiyyə Ərəbistanında əriştə firmasında çalışıb və təqaüdə çıxandan sonra ölkəsinə qayıdıb əkinçiliklə məşğul olub. Anası evdar qadın olsa da, boş vaxtlarında atası ilə birlikdə əkinçiliklə məşğul olur. Cemalettin isə Cənubi Hindistanın başqa bir şəhərində yaşayıb işləyir və bayramlarda ailəsinin yanına qayıdır. Azad böyüdüyünü deyən Cemalettin ona mənfi yanaşmadıqlarını, ancaq təhsil üçün Türkiyəyə gəlməsindən bir az qorxduqlarını bildirib. Anasının xüsusilə narahat olduğunu qeyd edən Çennankulavan, "Əslində atam xaricdə işləyərkən türk tanışları olub. Mənə "Türkiyəyə gedə bilərsən, xoşuna gəlmirsə, geri dönə bilərsən" dedi. Mən Türkiyəyə belə getdim".

**Turan**

## 3 min illik qılınc tapıldı
### Tunc dövrünə aid qılınc bürüncdəndir və parlaqlığını hələ də itirməyib



**Almaniyanın Bavyera əyalətində arxeoloqlar Donau-Ries bölgəsində apardıqları qazıntılar zamanı tunc dövrünə aid, 3 min il yaşı olduğu təxmin edilən qılınc aşkarlayıb.**

Qılıncın çox yaxşı vəziyyətdə qalması arxeoloqları heyrətləndirib. "Şərq" ""NTV.com.tr"yə istinadən xəbər verir ki, bu tapıntı barədə Bavyera Əyalət Tarixi Qoruma Dairəsi açıqlama yayıb. Açıqlamada qeyd edilir ki, arxeoloqlar Nördlingen şəhəri ətrafında apardıqları qazıntılar zamanı bu nadir tapıntıya imza atılb. Tunc dövrünə aid qılınc bürüncdəndir və parlaqlığını hələ də itirməyib. Qılıncın qəbzəsi səkkizguşəlidir və miladdan öncə 14-cü yüzilliyə aid edilir. Arxeoloqlar bu qılıncı bir kişi, bir qadın və gəncin sıra ilə dəfn edildiyi və onlarla yanaşı daha bir neçə əşyanın da basdırıldığı məzardan tapıblar. Eyni məzara dəfn edilmiş cəsədlərin bir ailəyə mənsub olub-olmadığı hələ dəqiqləşməyib. Baxmayaraq ki, qılıncın üzərində zərbə izlərinə rast gəlinmir, arxeoloqlar ondan həqiqi silah kimi istifadə edildiyinə əmindirlər. Bavyera Sənət Əsərlərinin Qorunması üzrə məsul şəxs professor Maçias Pfeil bildirib ki, arxeoloqların bu tapıntısı böyük uğurdur. Professor bildirib ki, "belə tapıntılara nadir hallarda rast gəlinir. Necə olub ki, qılınc parlaqlığını hələ də itirməyib? Bu barədə ciddi araşdırma aparmaq lazımdır", deyib.

**Məlahət**

## Çəkisi 800 kiloqramdır
### Tarixdən əvvəlki növ olan köpəkbalığı tutulub



**Tayvanda tarixdən əvvəlki növ kimi təsvir edilən goblin köpəkbalığı tutulub. 800 kiloqramlıq canlının 1200 metr dərinlikdə yaşadığı və insanlar üçün təhlükə yaratmadığı bildirilib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 800 kiloqramlıq goblin köpəkbalığı balıqçıların torlarına düşüb.

"9News"un xəbərinə görə, Yilan şəhərinin şimal-şərq sahilində tutulan köpəkbalığının hamilə olduğu aydın olub.

Tayvan Okean İncəsənəti Muzeyinin rəsmiləri sərgiləyəcəkləri köpəkbalığının nadir olduğunu və bundan əvvəl iki dəfə Meksikada tutulduğunu bildiriblər.

Təxminən 1200 metr dərinlikdə yaşayan köpəkbalığının şəffaf dərisi, çəhrayı bədəni və iti dişləri var. Bu növ insanlar üçün heç bir təhlükə yaratmır.

**Turan**